# MƏHKƏMƏ-HÜQUQ ŞURASININ

# BÜLLETENİ

YANVAR 2026

# MÜNDƏRİCAT


3 Apellyasiya instansiyası məhkəməsinin kollegiya sədrinin, birinci instansiya məhkəməsi sədrinin və bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi ilə bağlı bəzi məsələlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

12 A.Ə.Hüseynin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

13 Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə sədr təyin edilən Aida Hüseynlə görüş keçirilib

14 Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının kollektivi Ulu Öndərin xatirəsini yad edib

15 Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib

16 Ali Məhkəmə Plenumunun növbəti iclası keçirilib

17 Ali Məhkəmənin sədri İnam Kərimov Vyetnamda səfərdə olub

18 Ali Məhkəmə sədrinin müavini Qazaxıstanda keçirilən beynəlxalq forumda iştirak edib

19 Azərbaycan Respublikasının cinayət işləri üzrə mübahisələrə baxan hakimləri Türkiyədə səfərdə olublar

20 Məhkəmə-Hüquq Şurasının nümayəndəsi CEPEJ-in Strasburqda keçirilən 45-ci plenar iclasında iştirak edib

21 Məhkəmə-Hüquq Şurasının nümayəndəsi Barselonada keçirilən “HPE Discover 2025” tədbirində iştirak edib

22 Məhkəmə-Hüquq Şurasının nümayəndə heyəti Albaniyada təcrübə səfərində olub

23 Yeni təyin olunmuş hakimlər Ali Məhkəmədə and içiblər

24 Hakimlərin Seçki Komitəsinin məlumatı

26 Hakimliyə namizədlərlə keçiriləcək test imtahanının vaxtı açıqlanıb

27 Qazaxıstan Respublikası Ali Məhkəmə Şurası yanında Ədliyyə Akademiyasında təlim keçən hakimliyə namizədlər Azərbaycanda təlim səfərində olublar

28 Bir qrup hakim təlimə cəlb edilib

29 Hakimlərin təlim prosesi davam etdirilir

30 Qərarlar

37 Hüquqi aktlar

45 Dünyada Hüquq

# Apellyasiya instansiyası məhkəməsinin kollegiya sədrinin, birinci instansiya məhkəməsi sədrinin və bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi ilə bağlı bəzi məsələlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı



Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq qərara alıram:

1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, aşağıdakı hakimlərin vəzifələri dəyişdirilsin:

***apellyasiya instansiyası məhkəmələri üzrə:***

1.1. Səməd Fəxrəddin oğlu Cəfərov Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının sədri təyin edilsin;

***ağır cinayətlər məhkəmələri üzrə:***

1.2. Murad Şamxal oğlu Aslanov Lənkəran Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;
1.3. Firdovsi Zülfü oğlu Əliyev Masallı Rayon Məhkəməsinin hakimi və sədri vəzifələrindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

1.4. Kamil Çingiz oğlu Əliyev Yevlax Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

1.5. Aygün Arzu qızı Qurbanova Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin hakimi

vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

1.6. Asif Əmrah oğlu Əliyev Gəncə Şəhər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

**inzibati məhkəmələr üzrə:**

1.7. Natiq Əvəz oğlu İsmayılov Şamaxı Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı İnzibati Məhkəməsinin hakimi təyin edilsin;

1.8. Ramin Nizaməddin oğlu Quliyev Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı İnzibati Məhkəməsinin hakimi təyin edilsin;

1.9. Fərid Nadir oğlu Əliyev Tovuz Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Gəncə İnzibati Məhkəməsinin hakimi təyin edilsin;

***kommersiya məhkəmələri üzrə:***

1.10. Xədicə Əlicabbar qızı Səfərli Gəncə Şəhər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Gəncə Kommersiya Məhkəməsinin hakimi təyin edilsin;

***Bakı şəhərinin rayon məhkəmələri üzrə:***

1.11. Rəşad Seylan oğlu Məmmədov Gəncə Kommersiya Məhkəməsinin hakimi və sədri vəzifələrindən azad edilərək Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.12. Səidə Hüseynağa qızı Məmmədova Şirvan Şəhər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin hakimi təyin edilsin;

1.13. Fuad Bəhruz oğlu Babaşov Bərdə Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin hakimi təyin edilsin;

***rayon (şəhər) məhkəmələri üzrə:***

1.14. Vüsalə Yadigar qızı Məmmədova Xaçmaz Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Sumqayıt Şəhər Məhkəməsinin hakimi təyin edilsin.

2. “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 94-cü və 96-cı maddələrinə uyğun olaraq, aşağıdakı hakimlər birinci instansiya məhkəmələrinin hakimləri təyin edilsinlər:

***ağır cinayətlər məhkəmələri üzrə:***

*Bakı Ağır Cinayətlər Məhkəməsi*

Quliyev Vüqar Elbrus oğlu

Namazov Fərid Arif oğlu

*Gəncə Ağır Cinayətlər Məhkəməsi*

Məmmədzadə Mikayıl Maarif oğlu

Vəliyev Elşən Yaşar oğlu

*Lənkəran Ağır Cinayətlər Məhkəməsi*

Məmmədov Neymət Hüsən oğlu

*Sumqayıt Ağır Cinayətlər Məhkəməsi*

Cəfərzadə İlham Nizami oğlu

*Şəki Ağır Cinayətlər Məhkəməsi*

Məmmədov Xaliq Musa oğlu

***inzibati məhkəmələr üzrə:***

*Bakı İnzibati Məhkəməsi*

Babayev Aydın Vahid oğlu

Cəlalov Bəhlul Məmmədcəfər oğlu

Əlizadə Fariz Ariz oğlu

Musayeva Ləman Samir qızı

*Gəncə İnzibati Məhkəməsi*

Əliyeva Gülşən Talıb qızı

***kommersiya məhkəmələri üzrə:***

*Bakı Kommersiya Məhkəməsi*

Namazova Günay Rüstəm qızı

*Şirvan Kommersiya Məhkəməsi*

Abbasov Zaur Vahid oğlu

***Bakı şəhərinin rayon məhkəmələri üzrə:***

*Bakı şəhəri Binəqədi Rayon Məhkəməsi*

Bağırov Zamiq Rəşid oğlu

*Bakı şəhəri Xətai Rayon Məhkəməsi*

Abdullayeva Aynur Aydın qızı

Eyvazova Samirə Əli qızı

*Bakı şəhəri Xəzər Rayon Məhkəməsi*

Rüstəmov Emin Şahin oğlu

*Bakı şəhəri Qaradağ Rayon Məhkəməsi*

Aslanova Gülnar Faiq qızı

*Bakı şəhəri Nəsimi Rayon Məhkəməsi*

Abbasov Nail İbad oğlu

Heydərova Əfsanə Elbrus qızı

*Bakı şəhəri Sabunçu Rayon Məhkəməsi*

Mirzəliyev Ruslan Əsəd oğlu

Rəcəbova Elnurə Hüseyn qızı

*Bakı şəhəri Suraxanı Rayon Məhkəməsi*

Kərimov Namiq Həsrət oğlu

Mirzəyeva Firuzə Fuad qızı

Mirzəyeva Ünsüyyət Hacımehdi qızı

*Bakı şəhəri Yasamal Rayon Məhkəməsi*

Sultanova Məmmədova Ayşən Ramiz qızı

***rayon (şəhər) məhkəmələri üzrə:***

*Ağcabədi Rayon Məhkəməsi*

Musayev Şahəli Calal oğlu

*Gəncə Şəhər Məhkəməsi*

Əlizadə Elxan Novruz oğlu

Fərhadov Fuad Əlirza oğlu

*Lənkəran Rayon Məhkəməsi*

Pənahov Anar Elman oğlu

*Neftçala Rayon Məhkəməsi*

Quliyev Samir İdris oğlu

*Salyan Rayon Məhkəməsi*

Məmmədli Ənnağı Əbdül oğlu

*Samux Rayon Məhkəməsi*

Kərimova Tərifə Əbülfət qızı

*Sumqayıt Şəhər Məhkəməsi*

Həxiyeva Şəbnəm Səlim qızı

Quliyev Ramiz Mübariz oğlu

*Şəmkir Rayon Məhkəməsi*

Məhəmmədi Həvayət Kəmaləddin qızı

*Şirvan Şəhər Məhkəməsi*

Mustafayev Ceyhun Mustafa oğlu.

3. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü və 96-cı maddələrinə uyğun olaraq, hakim vəzifəsinə aşağıdakı namizədlər birinci instansiya məhkəmələrinin hakimləri təyin edilsinlər:

***hərbi məhkəmələr üzrə:***

*Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi*

Eminov Əziz Mürsəl oğlu

*Gəncə Hərbi Məhkəməsi*

Şəbəndəyeva Təhminə Əlistan qızı

***Naxçıvan Muxtar Respublikasının rayon məhkəmələri üzrə:***

*Babək Rayon Məhkəməsi*

Əhmədova Aynur Əvəz qızı

**Bakı şəhərinin rayon məhkəmələri üzrə:**

*Bakı şəhəri Binəqədi Rayon Məhkəməsi*

İbrahimli Toğrul Salman oğlu

Yusifova Ülkər Fizuli qızı

*Bakı şəhəri Xətai Rayon Məhkəməsi*

Əlizadə Orxan Arzuxan oğlu

Ramazanov Zəfər Akif oğlu

*Bakı şəhəri Xəzər Rayon Məhkəməsi*

Hüseynova Mələk Bəxtiyar qızı

Məhərrəmov Vüqar Sarvan oğlu

*Bakı şəhəri Qaradağ Rayon Məhkəməsi*

Maxsudova Ülkər Taleh qızı

Məmmədova Nigar Kərəm qızı

*Bakı şəhəri Nərimanov Rayon Məhkəməsi*

Əzizova Şəbnur Rəfail qızı

*Bakı şəhəri Nəsimi Rayon Məhkəməsi*

Həsənov İlyas İnqilab oğlu

İsmayılova Səbinə Vüqar qızı

*Bakı şəhəri Sabunçu Rayon Məhkəməsi*

Süleymanov Cavid Loğman oğlu

*Bakı şəhəri Suraxanı Rayon Məhkəməsi*

Məmmədov Məmməd Əhməd oğlu

***rayon (şəhər) məhkəmələri üzrə:***

*Abşeron Rayon Məhkəməsi*

Eminbəyli Məhəmməd Muxtar oğlu

Teymur-Zadə Elvin Rasif oğlu

*Ağcabədi Rayon Məhkəməsi*

Alməmmədov Nəriman Əli oğlu

*Ağstafa Rayon Məhkəməsi*

Həsənov Cavad İsa oğlu

*Beyləqan Rayon Məhkəməsi*

İslamov Tamerlan Cəlil oğlu

*Bərdə Rayon Məhkəməsi*

Hüseynquliyeva Lamiyə Qabil qızı

*Biləsuvar Rayon Məhkəməsi*

Əliyeva Aytəkin Güləli qızı

*Gəncə Şəhər Məhkəməsi*

Babazadə Ülkər Ağamalı qızı

Bayramova Kəmalə Fətulla qızı

Məmmədova Nərgiz Ramiz qızı

*Goranboy Rayon Məhkəməsi*

Vəliyev Kazım İntiqam oğlu

*Göyçay Rayon Məhkəməsi*

Camalzadə Cavid Əhməd oğlu

*Xaçmaz Rayon Məhkəməsi*

Ağazadə Nərmin Calal qızı

*Xankəndi Şəhər Məhkəməsi*

Niyazova Səkinə Mirzə qızı

*Kürdəmir Rayon Məhkəməsi*

Muxtarov Muxtar Arif oğlu

*Qax Rayon Məhkəməsi*

Mirzəzadə Asim Vilayət oğlu

*Qazax Rayon Məhkəməsi*

Məmmədova Nigar İbrahim qızı

*Qəbələ Rayon Məhkəməsi*

Abbaszadə Nərgiz Mirzəli qızı

*Quba Rayon Məhkəməsi*

Qazıbəyov İbrahim Mehman oğlu

*Qusar Rayon Məhkəməsi*

Səfərli Günel Adil qızı

*Laçın Rayon Məhkəməsi*

Mustafayev Cavidan Mustafa oğlu

*Lənkəran Rayon Məhkəməsi*

Murquzov Elmir İlqar oğlu

*Masallı Rayon Məhkəməsi*

Qasımlı Fidan Lətif qızı

*Oğuz Rayon Məhkəməsi*

Əliyev Rəşad Ayıl oğlu

*Saatlı Rayon Məhkəməsi*

Cəmilova Aygün Fərhad qızı

*Sumqayıt Şəhər Məhkəməsi*

Məhərrəmov Vüsal Rəfi oğlu

*Şəki Rayon Məhkəməsi*

Mövlayev Azər Aydın oğlu

*Şirvan Şəhər Məhkəməsi*

Abbasova Nərmin Bəxtiyar qızı

Yevlax Rayon Məhkəməsi

Cəfərova Ruqiyyə Ülfət qızı.

4. Bu Sərəncamın 1-ci və 3-cü hissələri bu Sərəncam imzalandığı gündən, 2-ci hissəsi 2026-cı il yanvarın 12-dən qüvvəyə minir.

***İlham Əliyev***

***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 25 dekabr 2025-ci il***

# A.Ə.Hüseynin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı



Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Aida Əli qızı Hüseyn Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham Əliyev***

***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 15 dekabr 2025-ci il.***

## *Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə sədr təyin edilən Aida Hüseynlə görüş keçirilib*



Azərbaycan Respublikası Ali Məhkəməsində Kommersiya kollegiyasının hakimi Aida Hüseynin Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə sədr vəzifəsinə təyin olunması münasibətilə tədbir keçirilib.

Tədbirdə Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov Aida Hüseyni Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə bu yüksək və məsuliyyətli vəzifəyə təyin olunması münasibətilə təbrik edərək, ona gələcək fəaliyyətində uğurlar arzulayıb. Qeyd olunub ki, Aida Hüseyn uzun illər səmərəli fəaliyyəti ilə məhkəmə hakimiyyətinin nüfuzunun gücləndirilməsinə mühüm töhfələr verib. Bildirilib ki, onun bundan sonrakı fəaliyyəti də ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına müsbət təsir göstərəcək.

Aida Hüseyn çıxışında ona göstərilən yüksək etimada görə ölkə başçısına minnətdarlığını bildirib, bundan sonra da üzərinə düşən vəzifələri layiqincə yerinə yetirərək ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına səylə çalışacağını qeyd edib.

# Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının kollektivi Ulu Öndərin xatirəsini yad edib

2025-ci il dekabrın 12-də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anım günü ilə əlaqədar Azərbaycan Respublikası Ali Məhkəməsinin və Məhkəmə-Hüquq Şurasının kollektivi Fəxri xiyabanı ziyarət edib.

Ulu Öndərin abidəsi önünə gül dəstələri düzülərək, əziz xatirəsi ehtiramla yad olunub.

Həmçinin görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi hörmətlə anılıb, məzarı üzərinə gül dəstələri qoyulub.



# Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib



2025-ci ilin dekabrın 16-da Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib.

İclasda çıxış edən Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov bildirib ki, hazırda yeni nəsil hakim korpusunun çevik komplektləşdirilməsi məqsədilə hakimliyə namizədlərin seçim prosesləri şəffaf və təkmilləşdirilmiş mərhələlər üzrə davam etməkdədir.

İclasda Hakimlərin Seçki Komitəsinin müraciətinə də baxılıb. Komitənin sədri Vidadi Cəfərov hakim vəzifəsinə namizədlərin seçimi prosesi barədə ətraflı məlumat təqdim edib.

Sonra müsabiqəni uğurla başa vurmuş 45 hakimliyə namizədlə fərdi söhbətlər aparılıb, onlara tövsiyələr verilib və yekunda birinci instansiya məhkəmələrinin hakimi vəzifələrinə təyin olunmaları üçün təkliflərin hazırlanması qərara alınıb.

Həmçinin, kadr məsələlərinə də baxılaraq müvafiq qərarlar qəbul edilib.

# Ali Məhkəmə Plenumunun növbəti iclası keçirilib



2025-ci il dekabrın 24-də Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.

İclasda "Şəxsiyyət (qeyri-əmlak) hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərar layihəsi müzakirəyə çıxarılıb və qəbul edilib.

Sonra "Xarici elementli kommersiya mübahisələrində qanunvericiliyin tətbiqi təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2023-cü il tarixli 16 nömrəli Qərarında əlavə və dəyişiklik edilməsi barədə Plenumun Qərar layihəsi müzakirə edilib və qəbul olunub.

"Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2001-ci il 1 noyabr tarixli 1 nömrəli Qərarında dəyişiklik edilməsi barədə Plenumun Qərar layihəsinin müzakirəsi aparılıb.

İclasda "Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun bəzi qərarlarında dəyişiklik edilməsi haqqında" Plenumun Qərar layihəsi də qəbul edilib.

Eyni zamanda 2024-cü ildə və 2025-ci ilin I yarımilliyində Sumqayıt Şəhər Məhkəməsində qanunvericiliyin tətbiqinin məhkəmə təcrübəsinə dair məsələləri üzrə və ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumatlar dinlənilib.

# Ali Məhkəmənin sədri İnam Kərimov Vyetnamda səfərdə olub




2025-ci ilin 1-3 dekabr tarixlərində Azərbaycan Respublikası Ali Məhkəməsinin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimovun rəhbərlik etdiyi nümayəndə heyəti Vyetnam Sosialist Respublikasında rəsmi səfərdə olub.

Vyetnam Ali Xalq Məhkəməsinin dəvəti ilə baş tutan səfər çərçivəsində Vyetnam Ali Xalq Məhkəməsinin sədri Nguyen Van Quang ilə görüş keçirilib. O, qonaqları qəbul etməkdən məmnunluğunu ifadə edərək, bu səfərin iki ölkənin məhkəmələri arasında əməkdaşlığı yeni mərhələyə yüksəldəcəyinə əminliyini bildirib. Vyetnam və Azərbaycan arasında mövcud olan ənənəvi dostluq münasibətlərinin gələcək əməkdaşlıqlar üçün möhkəm bir baza olduğunu qeyd edən Nguyen Van Quang Vyetnam məhkəmə sistemində son dövrlərdə aparılan islahatlar, məhkəmələrin strukturlaşdırılması, elektron məhkəmə və insan resurslarının inkişafı barədə məlumat verib. Bildirilib ki, Azərbaycan məhkəmə sisteminin, xüsusilə Ali Məhkəmənin təcrübə və biliklərinin öyrənilməsi Vyetnam üçün son dərəcə önəmlidir.

İnam Kərimov öz növbəsində dəvətə görə təşəkkürünü bildirərək, Azərbaycan tərəfinin Vyetnamla məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi və məhkəmələrin rəqəmsallaşdırılması sahəsində əməkdaşlığa hazır olduğunu diqqətə çatdırıb. O, eyni zamanda ölkəmizdə aparılan məhkəmə-hüquq islahatları, rəqəmsallaşma və ədalət mühakiməsinin səmərəliliyinin artırılması istiqamətində görülən işlər barədə ətraflı məlumat verib. Görüşdə iki ölkə arasında məhkəmə sahəsində əməkdaşlığın daha da dərinləşdirilməsi və yeni hüquqi təşəbbüslərin müzakirə edilməsi məqsədilə birgə fəaliyyət haqqında fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti, həmçinin Hanoi Şəhər Xalq Məhkəməsini və Quang Ninh Vilayətinin Xalq Məhkəməsində olub. Qonaqlara məhkəmələrin strukturu, fəaliyyət prinsipləri, iş yükü və illik statistik göstəriciləri barədə ətraflı məlumat verilib.

Qeyd edək ki, görüşlərdə Azərbaycan Respublikasının Vyetnamdakı Fövqəladə və Səlahiyyətli səfiri Şövqi Mehdizadə də iştirak edib.

## *Ali Məhkəmə sədrinin müavini Qazaxıstanda keçirilən beynəlxalq forumda iştirak edib*




Astana şəhərində Qazaxıstan Respublikası Ali Məhkəmə Şurasının 10 illik yubileyinə həsr olunmuş “İnsan hüquqlarının müdafiəsi və səmərəli ədalət mühakiməsi: milli ənənələrin və beynəlxalq standartların balanslaşdırılması” mövzusunda beynəlxalq forum keçirilib.

Tədbirdə Məhkəmə-Hüquq Şurasının üzvləri – Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavini Çingiz Əsgərov, Sumqayıt Apellyasiya Məhkəməsinin sədri Tofiq Paşayev və Xankəndi Şəhər Məhkəməsinin sədri İlkin Abdullayev iştirak ediblər.

Sözügedən forum hakimlərin, həm yerli, həm də beynəlxalq səviyyədə tanınmış alimlərin, ekspertlərin, praktiki mütəxəssislərin, dövlət orqanlarının, eləcə də diplomatik korpusun nümayəndələrinin iştirakı ilə Qazaxıstan Respublikasının Ali Məhkəmə Şurası yanında Ədliyyə Akademiyası tərəfindən Qazaxıstan Respublikasının Türk Məhkəmə Təlim Şəbəkəsinə sədrliyi çərçivəsində təşkil olunub.

Tədbirdə ədalət mühakiməsinin həyata keçirilməsi prosesində insan hüquqlarının müdafiəsi ilə bağlı milli və beynəlxalq əsasda tətbiq olunan yanaşmalar arasında tarazlığa dair aktual məsələlər geniş müzakirə olunub, insan hüquqlarının qorunması və ədalət mühakiməsinin səmərəliliyinin artırılması sahəsində qarşılıqlı və faydalı əməkdaşlığın davam etdirilməsinin əhəmiyyəti xüsusi vurğulanıb.

Forum insan hüquqlarının mühafizəsi və ədalət mühakiməsinin effektivliyinin yüksəldilməsi xüsusunda zəngin bilik və təcrübələrin öyrənilməsinə mühüm töhfə verib.

# Azərbaycan Respublikasının cinayət işləri üzrə mübahisələrə baxan hakimləri Türkiyədə səfərdə olublar




2025-ci ilin 15-20 dekabr tarixlərində Türkiyə Respublikasının Ali Məhkəməsi (Yargıtay) ilə təcrübə mübadiləsi proqramı çərçivəsində Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət kollegiyasının sədri Hafiz Nəsibovun başçılıq etdiyi Ali Məhkəmə, apellyasiya və birinci instansiya məhkəmələrinin hakimlərindən ibarət nümayəndə heyəti Türkiyədə səfərdə olub.

Səfər çərçivəsində nümayəndə heyəti Türkiyə Ali Məhkəməsinin sədri Ömər Kərkəz tərəfindən qəbul edilib. Görüşdə iki qardaş ölkənin məhkəmə-hüquq sahəsində əməkdaşlığı istiqamətində görülən işlər yüksək qiymətləndirilib.

Səfər zamanı hakimlərimiz türk həmkarları ilə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlər, nüfuz alveri (vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə), cəza siyasəti və güzəştli cinayət-hüquqi institutlar və hüququn digər sahələri ilə bağlı məhkəmə təcrübəsi ətrafında qarşılıqlı fikir mübadiləsi aparıblar.

# Məhkəmə-Hüquq Şurasının nümayəndəsi CEPEJ-in Strasburqda keçirilən 45-ci plenar iclasında iştirak edib



2025-ci ilin 4-5 dekabr tarixlərində Strasburq şəhərində Ədalət mühakiməsinin səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) 45-ci plenar iclası keçirilib. İclasda CEPEJ-in Azərbaycan Respublikası tərəfdən üzvü, Məhkəmə-Hüquq Şurasının Aparat rəhbəri Kərəm Mansurov iştirak edib.

CEPEJ üzvü olan ölkələrin nümayəndələrinin, işçi qrupların üzvlərinin və ekspertlərin iştirakı ilə keçirilən iclas çərçivəsində məhkəmə idarəçiliyi sahəsində son dövrdə həyata keçirilmiş islahatlar barədə məlumat mübadiləsi aparılıb, həmçinin məhkəmə sistemlərinin qiymətləndirilməsi, ədalət mühakiməsinin keyfiyyətinin artırılması, kiberməhkəmə və süni intellektdən istifadə, məhkəmələrdə iş yükünün ölçülməsi və məhkəmə işlərinə baxılması müddətinin idarə edilməsi üzrə təqdim olunmuş işçi sənədlər ətraflı müzakirə edilib.

İclasda qəbul olunan qərarlara əsasən, CEPEJ-in 2026-2027-ci illər üçün iş proqramı və məhkəmələrə etibarın yüksəldilməsi vasitəsi ilə qanunun aliliyinin gücləndirilməsini hədəfləyən 2026-2029-cu illərə dair yeni fəaliyyət planı ("Valletta planı") üzrə Strateji Yol Xəritəsi təsdiq olunub. Həmçinin iclasda süni intellektin sürətli və getdikcə artan tətbiqi prosesində məhkəmələrdə yaradıcı süni intellektdən istifadəyə dair təlimatlar da təsdiq edilib.

Müzakirələr nəticəsində işçi sənədlər üzrə müvafiq işçi qruplar tərəfindən növbəti mərhələdə atılacaq addımlar barədə razılıq əldə olunub.

# Məhkəmə-Hüquq Şurasının nümayəndəsi Barselonada keçirilən "HPE Discover 2025" tədbirində iştirak edib




Məhkəmə-Hüquq Şurası rəqəmsal həll yollarının tətbiqi ilə məhkəmə idarəetməsinin müasir standartlara uyğun inkişaf etdirilməsi istiqamətində beynəlxalq əməkdaşlıq fəaliyyətini ardıcıl şəkildə genişləndirməyə davam edir.

2025-ci ilin 3–5 dekabr tarixlərində İspaniya Krallığının Barselona şəhərində informasiya texnologiyaları sahəsində ixtisaslaşmış "Hewlett Packard Enterprise" (HPE) şirkətinin təşkilatçılığı ilə "HPE Discover 2025" tədbiri keçirilib. Tədbirdə Məhkəmə-Hüquq Şurasının Aparat rəhbərinin müavini – Rəqəmsal ədalət mühakiməsi və innovativ inkişaf şöbəsinin müdiri Nurlan Həmidli iştirak edib.

Tədbirdə məhkəmələrdə süni intellektin tətbiqini sürətləndirən innovativ həllər, qabaqcıl texnologiya şirkətlərinin müvafiq tövsiyələri, rəqəmsal təhlükəsizlik üzrə zəruri standartlar və etibarlı müdafiə strategiyaları, habelə süni intellekt əsaslı modulyar məlumat mərkəzlərinin istifadəsinin genişləndirilməsi kimi mövzularda müzakirələr aparılıb.

Sözügedən tədbir ədalət mühakiməsinin effektivliyinin artırılmasında faydalı ola biləcək ən son texnoloji yeniliklərin təhlilini mümkün etməklə, həmçinin bu sahədə aparıcı mütəxəssislərlə qarşılıqlı fikir mübadiləsi aparılaraq yeni ideyalar və qabaqcıl təcrübələrin öyrənilməsi üçün geniş imkanlar yaradıb. Ümumilikdə tədbir məhkəmə idarəçiliyinin rəqəmsal transformasiyasının sürətləndirilməsi sahəsində beynəlxalq miqyasda formalaşan yeni trendlərin müəyyənləşdirilməsi baxımından mühüm platforma rolunu oynayıb.

# Məhkəmə-Hüquq Şurasının nümayəndə heyəti Albaniyada təcrübə səfərində olub



Cari ilin 15-18 dekabr tarixlərində Məhkəmə-Hüquq Şurasının üzvü – Bakı Apellyasiya Məhkəməsinin sədri Mübariz Əkbərovun rəhbərlik etdiyi hakimlər və Məhkəmə-Hüquq Şurası Aparatının nümayəndələrindən ibarət heyət Albaniya Respublikasının Tirana şəhərində təşkil olunmuş təcrübə səfərində iştirak edib.

Səfərin əsas məqsədi Albaniya Respublikası Ali Məhkəmə Şurasının fəaliyyət istiqamətləri, təşkili və məhkəmə idarəetməsi sahəsində tətbiq olunan praktika ilə yaxından tanış olmaq, habelə qarşılıqlı maraq doğuran məsələlər üzrə bilik və qabaqcıl təcrübə mübadiləsini həyata keçirmək olub.

Səfər proqramı çərçivəsində Albaniya Respublikası Ali Məhkəmə Şurasının sədri və üzvləri ilə keçirilən görüş zamanı Albaniyada məhkəmə sisteminin təşkilati quruluşu, məhkəmə idarəetməsi, hakimlərin fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi, vakant hakim vəzifələrinə namizədlərin seçilməsi və təyin edilməsi prosedurları, habelə elektron məhkəmə sisteminin tətbiqi istiqamətində həyata keçirilən islahatlar və qabaqcıl təcrübələr barədə nümayəndə heyətinə ətraflı məlumat verilib, bu sahələr üzrə geniş və məhsuldar fikir mübadiləsi aparılıb.

Daha sonra Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurası Aparatının nümayəndəsi tərəfindən Məhkəmə-Hüquq Şurasının statusu və funksiyaları, Azərbaycan Respublikasının məhkəmə sistemi, məhkəmə müstəqilliyinin təmin edilməsi istiqamətində son dövrdə həyata keçirilmiş islahatlar, eləcə də “Elektron məhkəmə” informasiya sisteminin imkanları mövzularında təqdimatla çıxış edilib.

Nümayəndə heyəti həmçinin Korrupsiya və Mütəşəkkil Cinayətkarlıq üzrə İxtisaslaşmış birinci instansiya və apellyasiya instansiyası məhkəmələrində, Tirana İnzibati Məhkəməsində, İnzibati Apellyasiya Məhkəməsində, Tirana Ümumi Yurisdiksiya üzrə Şəhər Məhkəməsində və Tirana Ümumi Yurisdiksiya üzrə Apellyasiya Məhkəməsində olub.

# Yeni təyin olunmuş hakimlər Ali Məhkəmədə and içiblər



2025-ci il dekabrın 26-da Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.

İclasda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2025-ci il 25 dekabr tarixli Sərəncamı ilə birinci instansiya məhkəmələrinə təyinat alan 45 hakimin andiçmə mərasimi olub.

Ali Məhkəmənin sədri İnam Kərimov yeni təyin olunmuş hakimləri təbrik edərək, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Bildirilib ki, yeni nəsil hakim korpusunun çevik komplektləşdirilməsi məqsədilə hakimliyə namizədlərin seçim prosesi davamlı xarakter alıb. Sədr məhkəmə hakimiyyətinin nüfuzunun artırılması istiqamətində görülmüş işlərdən danışıb, yeni hakimlərə şərəfli hakim adını hər zaman uca tutmağı, ədalətli, vicdanlı və məsuliyyətli olmağı tövsiyə edib.

Sonra hakimlər növbə ilə andiçmə üçün kürsüyə dəvət olunub. Onlar "Məhkəmələr və hakimlər haqqında" Qanunun tələbinə əsasən ədalət mühakiməsini Azərbaycan Respublikasının Konstitusiyasına və Qanunlarına tam uyğun olaraq, qərəzsiz, ədalətlə həyata keçirəcəyinə, hakimin müstəqilliyini və ləyaqətini qoruyub saxlayacağına, yüksək hakim adına hörmət ruhunda davranacaqlarına and içiblər.

Hakim vəzifələrinə yeni təyin olunmuş şəxslərə hakimin xüsusi geyim forması təqdim olunub.

Daha sonra yeni təyin olunmuş hakimlər Səbinə İsmayılova və Elvin Teymur-Zadə çıxış edərək, onlara göstərilən yüksək etimadı doğruldacaqlarına və ədalət mühakiməsinin prinsiplərinə dönmədən əməl edəcəklərinə söz veriblər.

# Hakimlərin Seçki Komitəsinin məlumatı



Test üsulu ilə, habelə yazılı və şifahi imtahanlardan müvəffəqiyyətlə keçərək ilkin tədris kursunu, o cümlədən məhkəmələrdə stajkeçməni uğurla başa vurmuş hakimliyə namizədlərlə Hakimlərin Seçki Komitəsi tərəfindən yekun müsahibələr keçirilmişdir.

Yekun müsahibədə namizədlərin uzunmüddətli tədris kursunun proqramını mənimsəmə səviyyəsi, onların hüquq sahəsində nəzəri və praktiki biliklərini tətbiqi etmək bacarığı və ümumi dünyagörüşü, hakim işləmək üçün zəruri olan keyfiyyətlərə yiyələnməsi Komitə tərəfindən qiymətləndirilmiş, 45 hakimliyə namizəd yekun müsahibədə müvəffəqiyyət qazanmış, onların qiymətləndirilməsinin nəticələri və ixtisaslaşmaları barədə rəylər Məhkəmə-Hüquq Şurasına təqdim olunmuşdur.

Qanunvericiliyə uyğun olaraq 16.12.2025-ci il tarixdə Şura tərəfindən namizədlərlə söhbət və ixtisaslaşma aparılacaqdır.

| № | Soyadı, adı, atasının adı |
|---|---|
| 1. | *Abbasova Nərmin Bəxtiyar qızı* |
| 2. | *Abbaszadə Nərgiz Mirzəli qızı* |
| 3. | *Ağazadə Nərmin Calal qızı* |
| 4. | *Alməmmədov Nəriman Əli oğlu* |
| 5. | *Babazadə Ülkər Ağamalı qızı* |
| 6. | *Bayramova Kəmalə Fətulla qızı* |
| 7. | *Camalzadə Cavid Əhməd oğlu* |
| 8. | *Cəfərova Ruqiyyə Ülfət qızı* |
| 9. | *Cəmilova Aygün Fərhad qızı* |
| 10. | *Eminbəyli Məhəmməd Muxtar oğlu* |
| 11. | *Eminov Əziz Mürsəl oğlu* |
| 12. | *Əhmədova Aynur Əvəz qızı* |
| 13. | *Əliyev Rəşad Ayıl oğlu* |
| 14. | *Əliyeva Aytəkin Güləli qızı* |
| 15. | *Əlizadə Orxan Arzuxan oğlu* |
| 16. | *Əzizova Şəbnur Rəfail qızı* |
| 17. | *Həsənov Cavad İsa oğlu* |
| 18. | *Həsənov İlyas İnqilab oğlu* |
| 19. | *Hüseynquliyeva Lamiyə Qabil qızı* |
| 20. | *Hüseynova Mələk Bəxtiyar qızı* |
| 21. | *İbrahimli Toğrul Salman oğlu* |
| 22. | *İslamov Tamerlan Cəlil oğlu* |
| 23. | *İsmayılova Səbinə Vüqar qızı* |
| 24. | *Qasımlı Fidan Lətif qızı* |
| 25. | *Qazıbəyov İbrahim Mehman oğlu* |
| 26. | *Maxsudova Ülkər Taleh qızı* |
| 27. | *Məhərrəmov Vüqar Sarvan oğlu* |
| 28. | *Məhərrəmov Vüsal Rəfi oğlu* |
| 29. | *Məmmədov Məmməd Əhməd oğlu* |
| 30. | *Məmmədova Nərgiz Ramiz qızı* |
| 31. | *Məmmədova Nigar İbrahim qızı* |
| 32. | *Məmmədova Nigar Kərəm qızı* |
| 33. | *Mirzəzadə Asim Vilayət oğlu* |
| 34. | *Mövlayev Azər Aydın oğlu* |
| 35. | *Muxtarov Muxtar Arif oğlu* |
| 36. | *Murquzov Elmir İlqar oğlu* |
| 37. | *Mustafayev Cavidan Mustafa oğlu* |
| 38. | *Niyazova Səkinə Mirzə qızı* |
| 39. | *Ramazanov Zəfər Akif oğlu* |
| 40. | *Səfərli Günel Adil qızı* |
| 41. | *Süleymanov Cavid Loğman oğlu* |
| 42. | *Şəbəndiyeva Təhminə Əlistan qızı* |
| 43. | *Teymur-zadə Elvin Rasif oğlu* |
| 44. | *Vəliyev Kazım İntiqam oğlu* |
| 45. | *Yusifova Ülkər Fizuli qızı* |

# *Hakimliyə namizədlərlə keçiriləcək test imtahanının vaxtı açıqlanıb*



Hakimlərin Seçki Komitəsi tərəfindən hakim ştatlarının yüksək hazırlıqlı hüquqşünaslar hesabına komplektləşdirilməsi məqsədilə hakim vəzifəsinə namizədlərin şəffaf şəraitdə və obyektiv meyarlar əsasında seçimi davam etdirilir.

Namizədlərin seçimində çevikliyin təmin edilməsi, habelə onların imtahanlara hazırlaşmalarına şəraitin yaradılması məqsədilə müsabiqənin ilkin mərhələsi olan test imtahanının 2026-cı il iyun ayının 28-də keçirilməsi qərara alınmışdır.

Namizədlərin imtahanlara mükəmməl hazırlaşmalarına köməklik məqsədilə imtahan suallarına dair annotasiyanı, habelə imtahan qaydalarını, namizədlərin imtahanla bağlı vəzifələrini və imtahan suallarının nümunələrini özündə əks etdirən "Hakim vəzifəsinə namizədin yaddaş kitabçası" Məhkəmə-Hüquq Şuranın rəsmi internet səhifəsində (jlc.gov.az) yerləşdirilmişdir.

İmtahanla bağlı buraxılış vərəqələrinin təqdim olunması və digər aidiyyəti məsələlərə dair əlavə məlumat veriləcəkdir.

Sənədlər Hakimlərin Seçki Komitəsi tərəfindən bütün iş günləri ərzində, o cümlədən elektron poçt (hsk@jlc.gov.az) ünvanı vasitəsilə qəbul edilir.

Hakim olmaq arzusunda olan hüquqşünaslar sənədlərini təqdim etməyə dəvət olunurlar.

Əlaqə telefonları: (012) 510-22-97; (012) 510-21-62

## Qazaxıstan Respublikası Ali Məhkəmə Şurası yanında Ədliyyə Akademiyasında təlim keçən hakimliyə namizədlər Azərbaycanda təlim səfərində olublar



Cari ilin 1-12 dekabr tarixlərində Qazaxıstan Respublikası Ali Məhkəmə Şurası yanında Ədliyyə Akademiyasında təlim keçən 30 nəfər hakimliyə namizədlərə azərbaycanlı hakimlər tərəfindən müxtəlif mövzulara dair təlimlər keçirilib.

Təlim çərçivəsində iştirakçılara məhkəmə fəaliyyətinin müstəqilliyi və təşkili əsasları, hüququn müxtəlif sahələri, hüquqi yazı bacarıqları, habelə hakim etikası üzrə mövzular tədris edilib.

Təlimlərlə yanaşı, namizədlər məhkəmələrdə işlərə baxılması qaydası ilə tanış olmaq üçün Azərbaycan Respublikasının Ali Məhkəməsinə, Bakı Apellyasiya Məhkəməsinə, Bakı şəhəri Yasamal Rayon Məhkəməsinə və Sumqayıt Məhkəmə Kompleksinə səfər edərək məhkəmələrin fəaliyyətini yerində müşahidə ediblər. Səfər çərçivəsində iştirakçılara həmçinin "Elektron məhkəmə" informasiya sisteminin funksional imkanları barədə ətraflı məlumat verilib.

Ümumilikdə, təlim səfəri Azərbaycan və Qazaxıstan arasında məhkəmə-hüquq sahəsində əməkdaşlığın daha da gücləndirilməsinə, bu sahədə milli və beynəlxalq qabaqcıl təcrübələrin mübadiləsinə, eləcə də hakimliyə namizədlərin peşəkar inkişafına mühüm töhfə verib.

# *Bir qrup hakim təlimə cəlb edilib*



Hakimlərin davamlı tədrisinin təkmilləşdirilməsi məqsədilə təlimçi hakimlərin müvafiq təlimlərə cəlb edilməsi üçün Məhkəmə-Hüquq Şurası tərəfindən zəruri tədbirlər həyata keçirilməkdədir.

Bu məqsədlə Ali Məhkəmənin dəstəyi və Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə cari ilin 15-26 dekabr tarixlərində təlimçi hakimlər mülki hüquq və mülki proses, inzibati hüquq və proses mövzularında uzunmüddətli təlimə cəlb ediliblər.

Almaniyanın Martin Lüter adına Halle-Vittenberq Universitetinin professoru Azər Əliyev, həmin Universitetin professoru Konstantin Branovitskiy və Almaniyanın Berlin şəhərinin İnzibati məhkəməsinin hakimi Jorg Pudelkanın iştirakı ilə keçirilən təlimlərdə mövzular üzrə fikir mübadiləsi, müxtəlif kazuslar ətrafında müzakirələr aparılıb.

# Hakimlərin təlim prosesi davam etdirilir



Hakimlərin davamlı tədrisinin təkmilləşdirilməsi məqsədilə təlimçi hakimlərin müvafiq təlimlərə cəlb edilməsi üçün Məhkəmə-Hüquq Şurası tərəfindən zəruri tədbirlər həyata keçirilməkdədir.

Bu məqsədlə cari ilin 3-5 dekabr tarixlərində Şabran rayonunda təlimçi hakimlər təlim metodologiyası və hakim etikası mövzuları ətrafında uzunmüddətli təlimə cəlb ediliblər.

Avropa İttifaqının layihə üzrə eksperti Marina Naumovskanın iştirakı ilə keçirilən təlimlərdə mövzular üzrə fikir mübadiləsi, müxtəlif kazuslar ətrafında müzakirələr aparılıb.

Həmçinin təlim müddətində hakimlərin asudə vaxtları səmərəli təşkil olunub.

## Mülki işlər üzrə
## ★★★ statuslu qərar

**2[102]-2856/2025 xülasə**

**Mübahisəli hüquqi məsələnin qısa məzmunu:**

"Azərbaycan Müəllifləri" İctimai Birliyi şadlıq saraylarından birinə qarşı mətnli, yaxud mətnsiz musiqili əsərlərin kütləvi nümayişinin qadağan edilməsi, ödənilməmiş müəllif qonorarının və kompensasiyanın tutulması barədə iddia qaldırmışdır.
Cavabdeh iddiaya etirazını belə əsaslandırmışdır ki, iddiaçı bilavasitə hər hansı musiqi ilə bağlı müəlliflik hüquqlarına və bu hüquqların müdafiəsi ilə bağlı subyektiv hüquqa malik deyil, o cümlədən hansı müəlliflərə aid hansı musiqilərin kimlər tərəfindən hansı tarixlərdə müəllif hüquqları pozulmaqla ifa edildiyi göstərilməmiş, tələbin əsası kimi heç bir sübut təqdim edilməmişdir.
Məhkəmələr iddianı rədd edərkən ona əsaslanmışlar ki, iddiaçı hansı müəlliflərin müqavilə əsasında və ya üzv olmaqla özlərinin əmlak hüquqlarının idarəçiliyini birliyə həvalə etməsinə, həmin müəlliflərə aid hansı musiqilərin və ümumilikdə neçə gün ərzində cavabdehə aid ictimai iaşə obyektində (şadlıq evində) ifa edilməsinə dair sübutlar təqdim etməmişdir.

**Kassasiya instansiyası məhkəməsinin mövqeyi:**

Müəlliflik hüququ və əlaqəli hüquqların sahibləri özlərinin əmlak hüquqlarının idarə olunması səlahiyyətini yazılı müqavilələr bağlamaqla və ya üzv olmaqla sözügedən təşkilatlara verə bilərlər. Odur ki, müəlliflər və əlaqəli hüquqların sahibləri tərəfindən onların əmlak hüquqlarının kollektiv əsasda idarə edilməsi üçün yaradılmış belə təşkilatların öz hüquqlarının idarəçiliyini onlara həvalə etmiş şəxslərin mənafeyi naminə müvafiq işləri görmək (qonorarın məbləğlərini və başqa şərtlərini razılaşdırmaq, istifadəçilərə lisenziya vermək, qonorarı yığmaq, hüquq sahibləri arasında bölüşdürmək, müəlliflik hüquqlarını pozan və ya pozmaq təhlükəsi yaradan hərəkətlərin dayandırılmasını tələb etmək və s.) səlahiyyəti qanunvericilikdə açıqca göstərilmişdir.
Hazırkı iddianı irəli sürən İctimai Birlik Ədliyyə Nazirliyində 2004-cü ildə rəsmi qeydiyyatdan keçmişdir və müvafiq sayda üzvləri vardır. Birliyin fəaliyyət predmeti və məqsədi isə musiqili əsər müəlliflərinin əmlak hüquqlarının təmin edilməsi məqsədilə bu hüquqların kollektiv əsasda idarə edilməsidir. Birliyin nizamnaməsində lisenziya verilən hallarda istifadəçi ilə qonorarın məbləğini və başqa şərtlərini razılaşdırmaq, qonorarı yığmaq, müəlliflik hüquqlarını pozan və ya pozmaq təhlükəsi yaradan hərkətlərin dayandırılmasını tələb etmək, eləcə də məhkəmədə iddiaçı kimi çıxış etmək hüquqları nəzərdə tutulmuşdur. Odur ki, sözügedən birliyin müqavilə bağladığı və ya üzvü olan müəllifləri, yaxud digər hüquq sahiblərini təmsil etmək və onların hüquqlarını müdafiə etmək məqsədilə hazırkı iş üzrə tələbləri irəli sürmək hüquqları vardır.
Sübutetmə yükü ilə bağlı isə qeyd edilmişdir ki, məhkəmə hansı halların sübuta yetirilməli olduğunu təsbit etdikdən sonra həmin halların sübut edilməsi yükünün kimin üzərinə düşdüyünü müəyyən etməlidir. Sübutetmə yükü qanunda xüsusi bir qayda nəzərdə tutulmadığı halda iddia edilən halın mövcudluğuna (baş verməsinə) bağlanan hüquqi nəticədən xeyir görən tərəfə aiddir. Bir qayda olaraq sübutetmə yükü iddiaçının üzərinə düşür. Bununla belə, ümumi qaydanın bəzi istisnaları vardır. Əgər sübutetmə yükü qanunla başqa tərəfin üzərinə qoyulubsa, yaxud şəxs qanuni və ya faktiki prezumpsiyaya, yəni normal bir vəziyyətin əksi olan hala istinad edirsə, sübutetmə vəzifəsi həmin tərəfə aid olur.
Baxılan işdə məhkəmələr müəlliflərə aid hansı musiqilər və ümumilikdə neçə gün ərzində

cavabdehə aid ictimai iaşə obyektində ifa edilməsinə dair sübutları təqdim etmək yükünü iddiaçının üzərinə qoymaqda haqlı olmamışlar. Ona görə ki, həmin məlumatlar bir qayda olaraq əsərlərdən istifadə edən tərəfin əlində olduğundan iddiaçının onlara (və ya tamamına) çatımlılığı olmur. Təsadüfi deyil ki, "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanunun 42-ci maddəsinin 2-ci hissəsində əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatların əsərlərdən və əlaqəli hüquqların obyektlərindən istifadə edən şəxslərdən istifadə edilən əsərlər və gəlirləri haqqında müvafiq qaydada təsdiq olunmuş proqram və digər sənədlər almaq hüququ nəzərdə tutulmuşdur.
Eyni zamanda Nazirlər Kabinetinin adıçəkilən Qərarına 4 nömrəli Əlavənin 34-cü bəndinə əsasən, müəllif qonorarının bütün ödəyiciləri ifa olunan əsərlərin dəqiq qeydiyyatını aparmalı və müəlliflərin və əlaqəli hüquq sahiblərinin əmlak hüquqlarının kollektiv əsasda idarə edilməsi üzrə təşkilatın nümayəndəsinə faktiki ifa olunmuş əsərlərin adı, onların müəlliflərinin adı, soyadı və atasının adı (o cümlədən musiqinin, mətn və tərcümənin müəllifləri) haqqında məlumat verməlidirlər.
Qeyd edilənlər ona dəlalət edir ki, faktiki ifa olunmuş əsərlər barədə məlumatları təqdim etmək vəzifəsi onlardan istifadə edən şəxslərin üzərindədir.

*∗Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.*

## Cinayət işləri üzrə
## ★★★ statuslu qərar

**9[102]-3/2025 xülasə**

**İşin halları:**
Rusiya Federasiyasının istintaq orqanlarının təqsirləndirilən şəxsə qarşı irəli sürdükləri ittihama əsasən o, tanışı Y.İ.Kovalevanın evinə qanunsuz daxil olaraq, ondan pul oğurlamaq niyyətində olmuşdur. Rusiya Federasiyası, Rostov vilayəti, Matveyevo-Kurqan rayonu, Kamenno-Adrianovo kəndi, Verxnaya küçəsi, 27 ünvanında olan sözügedən evdə heç kimin olmadığına və onun hərəkətlərini heç kimin görmədiyinə əmin olaraq Y.İ.Kovalevanın əmlakını gizli şəkildə oğurlamaq niyyəti ilə, qanunsuz şəkildə özündə olan açarla giriş qapısının kilidini açaraq sözügedən yaşayış binasına daxil olmuş, Y.İ.Kovalevanın 230.000 rubl məbləğində pulunu gizli şəkildə oğurlamış, bu zaman gözlənilmədən Y.İ.Kovalevanın qohumu A.N.Nazarenko evə daxil olub onu görmüşdür. O, A.N.Nazarenkoya hücum edərək silah qismində istifadə etdiyi bıçaq ilə onun döş və boyun nahiyəsinə 7 bıçaq zərbəsi vurmuş, bununla da zərərçəkmiş şəxsin qırtlaq, nəfəs borusu, boynun kiçik və iri damarlarının tam kəsilməsi ilə boyun nahiyəsinin kəsilmiş yaraları, perikardial nahiyənin yaraları ilə döş qəfəsinin bıçaq yaraları və plevra boşluqlarına xəsarət yetirmiş, A.N.Nazarenko aldığı xəsarətlər nəticəsində hadisə yerində ölmüşdür.
Rusiya Federasiyası, Rostov Vilayət Məhkəməsinin qiyabi icraat qaydasında baxılan hökmünə əsasən, şəxs Rusiya Federasiyası Cinayət Məcəlləsinin 162-ci maddəsinin 4-cü hissəsinin «v» bəndi (quldurluq, zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurma), CM-in 105-ci maddəsinin 2-ci hissəsinin «z» bəndi (adam öldürmə, tamah niyyəti və ya sifarişlə, habelə quldurluq, hədə-qorxu ilə tələb etmə və ya banditizmlə əlaqədar) və CM-in 167-ci maddəsinin 2-ci hissəsi (xuliqanlıq niyyətilə, yandırmaqla, partlatmaqla və ya başqa ümumi təhlükəli üsulla törədildikdə və ya ehtiyatsızlıqdan insan ölümünə səbəb olduqda əmlakı qəsdən məhv etmə və ya zədələmə) təqsirli bilinərək cəzasını ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkməklə qəti olaraq 17 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuşdur.
Hökm müdafiəçi tərəfindən verilmiş apellyasiya şikayəti əsasında Rusiya Federasiyasının 3-cü Apellyasiya Məhkəməsinin qərarı ilə qüvvədə saxlanılmışdır.
Azərbaycan Respublikası Baş Prokurorunun müavini məhkum edilmiş şəxsin barəsində olan Rusiya Federasiyası, Rostov Vilayətinin hökmünün və 3-cü Apellyasiya Məhkəməsinin qərarının Azərbaycan Respublikasının ərazisində tanınması barədə təqdimatla Gəncə Apellyasiya Məhkəməsinə müraciət etmişdir.

**Apellyasiya instansiya məhkəməsinin mövqeyi:**
Azərbaycan Respublikası Baş prokurorunun müavininin təqdimatı təmin edilməmiş, Rusiya Federasiyası Rostov Vilayətinin hökmünün və 3-cü Apellyasiya Məhkəməsinin qərarının Azərbaycan Respublikasının ərazisində tanınmasından imtina edilmişdir.

**Azərbaycan Respublikası Ali Məhkəməsinin mövqeyi:**
Kassasiya protesti qismən təmin edilmiş, Rusiya Federasiyası, Rostov Vilayət Məhkəməsinin hökmünün və 3-cü Apellyasiya Məhkəməsinin qərarının Azərbaycan Respublikası ərazisində tanınmasından imtina olunması barədə Gəncə Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının qərarı ləğv edilmiş və material apellyasiya instansiyası məhkəməsində yenidən baxılmağa təyin edilmişdir.

**Azərbaycan Respublikası Ali Məhkəməsinin əsaslandırması:**
1. Kassasiya protestinin dəlilləri əsasında materialları araşdıran kassasiya instansiyası

məhkəməsi qeyd etmişdir ki, apellyasiya instansiyası məhkəməsinin qərarından göründüyü kimi, məhkəmə kollegiyası RF-ın hökm və qərarını tanımaqdan imtina edərkən öz mövqeyini, birinci, hazırkı işə RF-da qiyabi icraat qaydasında baxılmasını və şəxsin təqsirli bilinərək məhkum edildiyi maddələr üzrə cinayət işlərinə Azərbaycan Respublikası CPM-in müddəalarına uyğun olaraq qiyabi icraat qaydasında baxılmasının yol verilməməsi ilə, ikinci, işə mahiyyəti üzrə baxılması üçün cinayət işi materiallarının Azərbaycan Respublikasına göndərilməsindən imtina edilməsi, üçüncü, məhkumun kassasiya şikayəti ilə kassasiya instansiyası məhkəməsinə müraciət etmək hüququnun təmin edilməməsi, dördüncü, məhkumun müdafiə hüquqlarının təmin edilməməsi ilə əsaslandırmışdır.
2. Kassasiya kollegiyası apellyasiya instansiyası məhkəməsinin məhkumun barəsində işə RF-da qiyabi icraat qaydasında baxılmasının qanunsuz olması dəlilinə münasibət bildirərək qeyd etmişdir ki, onun təqsirli bilinərək qiyabi icraat qaydasında məhkum edildiyi CM-in konkret maddələri üzrə Azərbaycan Respublikasının CPM-də qiyabi icraat qaydasında baxılmasının nəzərdə tutulmaması xarici ölkə hökmünün tanınmasından imtina üçün mübahisəsiz əsas kimi qəbul edilə bilməz və hər bir ölkə öz daxili qanunvericiliyini, o cümlədən qiyabi icraatla bağlı qanunvericiliyi müstəqil müəyyən etmək hüququna malikdir.
3. Avropa Konvensiyasında qiyabi icraat qaydasında çıxarılmış hökmlərin tanınması prosedurları ilə bağlı müfəssəl qaydalar müəyyən edilmişdir və kassasiya kollegiyası hesab edir ki, hökmlərin tanınması zamanı həmin Konvensiyanın müddəalarından eyni məzmunlu problemlərin şərh edilməsi məqsədi ilə istifadə edilməsi istər Azərbaycan Respublikasının daxili qanunvericiliyinin, istərsə də Kişinyov Konvensiyasının tələblərinə zidd deyil.
4. Apellyasiya instansiya məhkəməsinin ikinci və üçüncü dəlilləri ilə bağlı kassasiya kollegiyası qeyd etmişdir ki, icraatında olan işin baxılması üçün başqa ölkəyə göndərilməsi Konvensiyalarda Dövlətin hüququ kimi nəzərdə tutulmuşdur və Rusiya Federasiyasının bu hüququndan istifadə etməməsi, öz-özlüyündə qiyabi icraat qaydasında çıxarılmış hökmün tanınmasından imtina üçün əsas sayıla bilməz. Bundan əlavə, Rusiya Federasiyasının hökmü ilə məhkum edilmiş şəxsin barəsində olan hökmdən kassasiya şikayəti verilməməsi halını əsas götürməklə, hökmün tanınmasından imtina edilməsini də əsaslı hesab etmək mümkün deyil.
5. Belə ki, birincisi, şəxsin barəsində olan qərardan kassasiya şikayəti verməsi onun hüququdur və onun bu hüququndan istifadə etməməsi Dövlət üçün hər hansı neqativ nəticələrə gətirib çıxara bilməz. İkinci isə, apellyasiya instansiyası məhkəməsinin yekun qərarından sonra hökm qanuni qüvvəyə minir və icrası məcburi olan qəti qərara çevrilir. Apellyasiya instansiyası məhkəməsinin dördüncü dəlili şəxsin müdafiə hüquqlarının təmin edilməsi ilə bağlıdır.
6. Həqiqətən də, RF-nın məhkəmə hökmündən və qərarından görünür ki, məhkumun məhkəmə iclaslarında dövlət büdcəsinin vəsaiti hesabına məhkəmə tərəfindən təyin edilmiş vəkili olmuşdur.
7. Kassasiya protestində də bu fakta istinad edərək kassator məhkumun müdafiə hüququnun təmin edilməsi ilə bağlı nəticəyə gəlmişdir. Məhkəmə kollegiyası müdafiə hüququ ilə bağlı qeyd etmişdir ki, müdafiəçinin məhkəmə iclasında formal olaraq iştirak etməsi müdafiə hüququnun təmin edilməsi anlamına gəlmir. Müdafiə hüququ ilə bağlı məsələ ortaya çıxdıqda araşdırmaq lazımdır ki, müdafiəçi müvəkkilinin hüquqlarının müdafiə edilməsi üçün konkret hansı hərəkətlər edib, müdafiəni hansı səylə həyata keçirib, açıq məhkəmə iclaslarında hansı səviyyədə fəallıq göstərib, necə dəfə və hansı məzmunda vəsatətlər verib, zərərçəkmiş şəxsə, şahidlərə suallar ünvanlayıbmı, ümumiyyətlə, cinayət işinin materialları ilə tanış olubmu, müdafiəçinin ittiham hökmündən vermiş olduğu apellyasiya şikayəti cinayət işinin materiallarına və işin hallarına uyğun əsaslandırılmışdırmı, həmin apellyasiya şikayəti vicdanlı şəkildə konkret hüquq normalarına uyğun tərtib edilmişdirmi, məhkəmə dinləmələrində müdafiəçinin cinayət işinin materialları ilə dərindən tanış olması hiss olunubmu, yoxsa müdafiəçi yalnız seyrçi rolunu oynamışdır. Bu qeyd edilən məsələlər araşdırılmadan, yalnız müdafiəçinin məhkəmə iclasında

formal iştirakına əsaslanmaqla, təqsirləndirilən şəxsin müdafiə hüququnun təmin edilməsi qənaətinə gəlinməsi qeyri-mümkündür.
8. Bu zaman nəzərə almaq lazımdır ki, müdafiə hüququ ilə bağlı məsələ işə təqsirləndirilən şəxsin iştirakı olmadan qiyabi icraat qaydasında baxılarkən xüsusilə böyük əhəmiyyətə malikdir.
9. Avropa Konvensiyasının tövsiyə xarakterli müddəalarından da görünür ki, qiyabi icraat qaydasında çıxarılan hökmə məhkum etiraz etdikdə, yenidən məhkəmə dinləmələri keçirilməlidir.
10. Lakin hazırkı halda məhkum barəsində olan cinayət işinin materialları (materialların oxuna bilən ksero surətləri), o cümlədən həm birinci instansiya məhkəməsinin, həm də apellyasiya instansiyası məhkəməsinin məhkəmə iclas protokolları Rusiya Federasiyasının aidiyyəti məhkəməsi tərəfindən Azərbaycan Respublikasının müvafiq səlahiyyətli orqanına göndərilmədiyindən, Rusiya Federasiyasında keçirilən məhkəmə dinləmələri zamanı məhkumun müdafiə hüquqlarının yüksək səviyyədə, formal deyil, real olaraq təmin edilib-edilməməsini müəyyən etmək mümkün deyil.
11. İşin hallarından göründüyü kimi, Rusiya Federasiyasının ittiham hökmünün əsasını istintaqın ilkin mərhələsində məhkumun vermiş olduğu etiraf ifadəsi təşkil etmişdir. Kassasiya protestində də bu ifadəyə xüsusi vurğu edilmişdir.
12. Lakin Rusiya Federasiyasının öz məhkəməsi, məhkumun qeyri-rus millətindən olması və ona tərcüməçi təhkim edilmədən ifadəsinin alınmasını əsas götürərək, bu halı onun hüquqlarının kobud şəkildə pozulması kimi qiymətləndirmiş və onun barəsində həbs qətimkan tədbiri seçilməsindən imtina etmişdir.
13. Lakin hökmdə bu məsələyə heç bir münasibət bildirilməmişdir. Məhkum özü isə polislər tərəfindən döyüldüyünü, işgəncələrə məruz qaldığını bildirərək işgəncə təsiri altında ağ vərəqələrə imza etdiyini bildirmişdir.
14. Ancaq məhkumun ona ibtidai istintaq zamanı işgəncə verilməsi ilə bağlı dəlilləri də kifayətedici və inandırıcı şəkildə, Avropa Məhkəməsinin Presedent hüququnun tələblərinə uyğun araşdırılmamış, məhkumun dəlillərinə əsaslandırılmış, obyektiv müşahidəçini qane edəcək səviyyədə münasibət bildirilməmişdir.
15. Lakin qeyd edilən məsələlərin cinayət işinə qiyabi icraat qaydasında baxan RF məhkəmələrində araşdırılıb-araşdırılmaması, bunun üçün zəruri olan sənədlər tələb edilərək aydınlaşdırılmadan, məhkəmə qərarlarının tanınmasından imtina edilmişdir.
16. Məhkəmə kollegiyası hesab etmişdir ki, hazırkı qərarın təsviri-əsaslandırıcı hissəsində müəyyən edilmiş istiqamətlər üzrə və Azərbaycan Respublikasının daxili qanunvericiliyi və tərəfdar çıxdığı beynəlxalq müqavilələrin və konvensiyaların tələblərinə uyğun hərtərəfli, tam və obyektiv araşdırma aparmadan təqdimata dair qanuni və əsaslı yekun qərarın qəbul edilməsi mümkün deyil.
17. Qeyd edilənləri yekunlaşdıraraq kassasiya kollegiyası hesab etmişdir ki, kassasiya protesti qismən təmin edilməli, Gəncə Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının qərarı ləğv edilməli və material apellyasiya instansiyası məhkəməsində yenidən baxılmağa təyin edilməlidir.
18. İşə apellyasiya instansiyası məhkəməsində yenidən baxılarkən məhkuma işgəncə verilməsi faktının qiymətləndirilməsi məqsədi ilə işgəncə faktı ilə bağlı araşdırma materiallarının, eləcə də, onun müdafiə hüquqlarının hansı səviyyədə təmin edilməsinin yoxlanılması üçün RF-da məhkumun barəsində olan cinayət işinin materiallarının, o cümlədən hər iki instansiya məhkəməsinin məhkəmə iclası protokollarının və əgər məhkəmə iclasının audio-video çəkilişi həyata keçirilmişdirsə, həmin görüntülərin tələb edilərək öyrənilməsi zərurudir.

**Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.*

## İnzibati işlər üzrə ★★★ statuslu qərar

**2-1[102]-3135/2024 xülasə**

**İşin nömrəsi: 2-1(102)-3135/2024**

**Mübahisəli hüquqi məsələnin qısa məzmunu:**
əmək pensiyasının təyin olunması barədə qərarın ləğv olunması və ya dəyişdirilməsi ilə bağlı inzibati icraatın aparılması; qərarın dəyişdirilməsi və ya ləğv olunması üçün əsas olan halın inzibati orqana məlum olma vaxtı; 1 (bir) illik müddət şərti; etimad hüququ; hüquqi müəyyənlik.

1. Nəzərə almaq lazımdır ki, inzibati orqan qüvvədə olan əlverişli inzibati aktın qanunsuz olması ilə bağlı əsaslı məlumatlar əldə etdiyi halda, inzibati icraat haqqında qanunvericiliyin tələbləri baxımından, xidməti mövqeyinə görə həmin inzibati aktın qəbul edilməsi üzrə əvvəlki inzibati icraatı təzələməyə və icraat aparmağa, icraat çərçivəsində inzibati aktın ləğvini və ya dəyişdirilməsini şərtləndirən halların mövcudluğunu müəyyən etməyə borcludur. Bu zaman inzibati orqan tərəfindən şəxsin həmin inzibati akta etimad hüququnun mövcudluğu, şəxsin etimadının qanunla qorunub-qorunmadığı “İnzibati icraat haqqında” Qanunun 67-ci, xüsusən də 67.5-67.13-ci maddələrinin müddəaları baxımından yoxlanılmalıdır. İnzibati orqan yalnız bu halların müəyyən edilməsindən sonra inzibati aktın ləğvi və ya dəyişdirilməsi və ya inzibati aktın ləğvi və ya dəyişdirilməsindən imtina barədə qərar qəbul etməyə haqlıdır.
2. Şəxsə əmək pensiyasının cavabdehin özü tərəfindən təyin olunduğu hallarda, cavabdeh prinsipcə, özünün əvvəlki təyinatla bağlı qərarının tamamilə və ya qismən səhv olduğunu müəyyən etdikdə, sonradan həmin qərarı ləğv etmək və ya dəyişdirməklə bağlı yeni qərar qəbul etməkdə haqlıdır... Lakin inzibati orqanların malik olduğu bu səlahiyyətin həyata keçirilməsi müəyyən məhdudiyyətlərə tabedir və yalnız qanunvericiliklə dəqiq müəyyənləşdirilmiş müddətdə və proseduralar çərçivəsində həyata keçirilə bilər... Əvvəlki qərarın ləğvi və ya dəyişdirilməsi məsələsinə münasibətdə hüquqi təhlükəsizliyin və sabitliyin qorunması baxımından qanunvericiliyin müəyyən etdiyi mühüm təminatlardan biri “İnzibati icraat haqqında” Qanunun 67.12-ci maddəsində təsbit olunmuş müddətlə bağlı təminatdır. Həmin maddəyə əsasən, qanunsuz inzibati akt, həmin aktın ləğv olunmasını şərtləndirən hallar məlum olduğu gündən 1 il ərzində ləğv edilə bilər. Qanunun imperativ xarakter daşıyan həmin normasına görə, inzibati orqan tərəfindən əvvəllər qəbul edilmiş qanunsuz inzibati akt, Qanunun 67.6.1-ci maddəsində sadalanan hallar istisna olmaqla, qalan digər hallarda yalnız inzibati aktın ləğv olunmasına, yaxud dəyişdirilməsinə səbəb olan hal və ya hallar inzibati orqana məlum olduğu gündən 1 il ərzində ləğv oluna, yaxud dəyişdirilə bilər.
3. “İnzibati icraat haqqında” Qanunun 67.12-ci maddəsində təsbit olunmuş sözügedən müddətlə bağlı məhdudiyyət ümumən konstitusion dəyər olan hüquqi dövlət prinsipindən irəli gəlir və hüquqi sabitliyin, müəyyənliyin və təhlükəsizliyin təmin edilməsi məqsədlərinə xidmət edir. Buna görə, hüquq münasibətləri, o cümlədən inzibati orqanlarla yaranmış münasibətlər davamlı təftiş olunma riski altında buraxıla bilməz. Belə yanaşma şəxsin hüquqi vəziyyətində qeyri-müəyyənliyə gətirib çıxarardı, onları öz davranışlarını və həyat şəraitlərini planlaşdırmaq imkanından məhrum edərdi, inzibati orqanların fəaliyyətinə münasibətdə isə səmərəli və proqnozlaşdırıla bilən idarəçilik qaydasının təşəkkül tapmasına mane olardı. Bu mənada, inzibati orqanın müvafiq səlahiyyəti qanunsuz olduğunu güman etdiyi inzibati aktın hər bir halda deyil, mütləq qanunvericilikdə təsbit olunmuş konkret təminatlara riayət etməklə ləğv etmək və ya dəyişdirmək imkanı kimi təfsir olunmalıdır. Yuxarıda da qeyd edildiyi kimi “İnzibati icraat haqqında” Qanun belə təminatların sırasına həm də 67.12-ci maddədə təsbit olunmuş müddətlə bağlı məhdudiyyətləri aid etmişdir.

4. Beləliklə, inzibati orqan şəxsə pensiya təyin olunması barədə əvvəllər qəbul etdiyi qərarın ləğv olunması, yaxud dəyişdirilməsi barədə qərar qəbul etmək üçün yuxarıda qeyd olunduğu kimi, "İnzibati icraat haqqında" Qanunun tələblərinə uyğun inzibati icraat aparmalıdır. Yalnız apardığı inzibati icraat çərçivəsində həmin Qanunun 67.12-ci maddəsində olan şərtlər mövcud olduğu halda (inzibati aktın ləğv olunmasına səbəb olan hal(lar)ın mövcud olması, həmin hal(lar) ın inzibati orqana məlum olmasından 1 (bir) il müddətin keçməmiş olması) əvvəllər qəbul etdiyi qərarın tam, yaxud qismən ləğv olunması və ya dəyişdirilməsi barədə əsaslandırılmış qərar qəbul edə bilər.
5. Digər tərəfdən, qanunverici cavabdehin inzibati aktın ləğv edilməsinə və ya dəyişdirilməsinə dair müddətin axımının başlanmasını buna dair əsasın ona məlum olduğu, yəni bildiyi və ya bilməli olduğu vaxtla şərtləndirir. Bu zaman bildiyi və ya bilməli olduğu vaxtın fərqli vəziyyətlər olduğu da nəzərə alınmalıdır. Bildiyi hal elə bir hüquqi faktdır ki, inzibati orqan rəsmi mənbədən özünün əvvəlki qərarının qanunsuz olduğu nəticəsinə gəlməyə əsas verən məlumat alır. Həmin məlumatın hansı orqandan və hansı mənbədən əldə olunması hər hansı bir əhəmiyyət kəsb etmir. Bu zaman əhəmiyyət kəsb edən həmin məlumatın inzibati orqana məlum olması anıdır. Bilməli olduğu hal isə elə hüquqi faktdır ki, inzibati orqanın bu hüquqi fakt barədə məlumatının olmaması həyatın adi axarı və müvafiq sahədə tətbiq olunan yerləşmiş idarəçilik qaydaları nəzərə alındıqda, ağlabatan olmamaqla mümkünsüzdür.
6. İnzibati aktın ləğvini və ya dəyişdirilməsini şərtləndirən halların məlum olduğu vaxtın başlanğıcının düzgün müəyyən edilməsi həlledici əhəmiyyət kəsb edir. Ona görə də, məhkəmələr bu anı yalnız mötəbər sübutlara əsaslanmaqla müəyyənləşdirməlidir. Bunun üçün ilk növbədə, qanunsuzluğu iddia olunan aktın ləğv edilməsinə və ya dəyişdirilməsinə səbəb olan halın (halların) məhz nələrdən ibarət olduğu, inzibati orqanın hansı hallara istinad etdiyi dəqiq aydınlaşdırılmalıdır. Belə halların nələrdən ibarət olduğunu bildirmək vəzifəsi inzibati orqanın üzərinə düşür. Daha sonra qiymətləndirilməli olan məsələ sözügedən halın inzibati orqanın yuxarıda göstərilən bildiyi və ya bilməli olduğu hallardan hansına aid olduğunu müəyyənləşdirməkdən ibarətdir.
7. İnzibati aktın ləğv olunmasını və ya dəyişdirilməsini şərtləndirən halların inzibati orqana məlum olduğu gündən 1 (bir) il ərzində müvafiq qərar qəbul etməyə dair qanundakı imperativ göstərişin təyinatı və məqsədi subyektiv hüquqların və qanuni mənafelərin müdafiəsilə bağlı hüquqi müəyyənliyin təmin olunmasına xidmət etməklə yanaşı, həm də münasibət iştirakçılarının məsuliyyət hissinin artırılmasına, yarana biləcək laqeyd, səhlənkar münasibətin aradan qaldırılmasına və sui-istifadə hallarının qarşısının alınmasına, xüsusən də səmərəli, proqnozlaşdırıla bilən və vətəndaşların etimadının qorunduğu dövlət idarəçiliyinin təmin edilməsinə yönəlmişdir. Əks yanaşma, milli və beynəlxalq hüquqla müəyyən edilmiş sosial təminat hüququna dair insan və vətəndaş hüquqlarının pozulması ilə nəticələnə bilər. Cavabdeh inzibati orqanın əmək pensiyasının məbləğinin düzgün hesablanmadığı barədə uzun müddət hərəkətsizlik edərək susqunluq göstərməsi, etimad hüququnu zədələyəcək şəkildə özlərinin həyat şəraitlərini aldıqları pensiya təminatına görə planlaşdırmış həssas kateqoriyaya aid şəxslərin ziyanına şərh edilə bilməz. Dövlət orqanlarından etimad hüququ çərçivəsində gözlənilən onların vaxtında, uyğun və ardıcıl şəkildə hərəkət etmək öhdəliyinə riayət etmələridir. Vətəndaşlar "İnzibati icraat haqqında" Qanunun 67.6-cı maddəsində sadalanmış hallar istisna olmaqla prinsipcə, onların xeyrinə çıxarılmış yekun əlverişli inzibati aktların və həmin aktlardan irəli gələn tətbiq tədbirlərinin etibarlılığına güvənə bilməlidirlər. Həmin güvən etimad hüququnu yaratmaqla qanunla müəyyən edilmiş həddlərdə qorunur.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

# Qanunvericiliyə edilmiş dəyişikliklər

## 1. "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 113-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 2025-ci il 10 oktyabr tarixli 265-VIIQD nömrəli Qanunu

Hüquqi akta keçid

"Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 113-VIIQD nömrəli Qanununun icrası ilə bağlı qanunvericilikdə təsbit olunan uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalarla bağlı bir sıra qanunlarda uyğunlaşdırma və dəqiqləşdirmə xarakterli dəyişikliklər edilmişdir.
Belə ki, yuxarıda qeyd olunan qanuna əsasən yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların adı dəyişdirilərək uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar kimi müəyyən olunmuşdur. Həmçinin komissiyaların səlahiyyətlərində müvafiq dəyişikliklər edilərək, himayədar ailəyə verilmiş uşaqlar, habelə Azərbaycan Respublikası Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar istisna olmaqla, digər hallarda uşaqlar üzərində qəyyumluq və himayəçilik orqanının funksiyaları komissiyalara həvalə edilmişdir.

Hüquqi akta keçid

## 2. "Dövlət xidmətləri haqqında" Azərbaycan Respublikasının 2025-ci il 31 oktyabr tarixli 279-VIIQ nömrəli Qanunu

"Dövlət xidmətləri haqqında" Azərbaycan Respublikasının Qanunu "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın icrası çərçivəsində hazırlanmış, 5 fəsil və 20 maddədən ibarətdir. Qanun dövlət xidmətləri sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyən edir, həmçinin dövlət xidmətlərinin göstərilməsi sahəsində münasibətləri tənzimləyir. Qanunda dövlət xidməti, dövlət xidmətinin göstərilmə yeri, vahid xidmət mərkəzi, eləcə də dövlət xidmətinin dizaynı ilə bağlı anlayışlar əks olunmuşdur. Bununla yanaşı, xidmət istifadəçilərinin dairəsi, onların hüquq və vəzifələri müəyyən edilmişdir. Dövlət xidmətlərinin göstərilməsində korrupsiya risklərinin azaldılması məqsədilə qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla dövlət xidmətinə müraciətlərin ardıcıllıqla həyata keçirilməsi üçün növbəlilik prinsipi təsbit olunur. Həmçinin dövlət xidmətləri haqqında məlumatların vahid mənbədə toplanılması və sistemləşdirilməsi, xidmətlərin göstərilməsində təkrarlığın aradan qaldırılması, dövlət xidmətlərinin göstərilməsi sahəsində çevikliyin təmin edilməsi və xidmətlər üzrə təhlil və proqnozlaşdırma imkanlarının artırılması məqsədilə Dövlət Xidmətlərinin Elektron Reyestri (DXER) təşkil edilir. Qanunda DXER vasitəsilə dövlət xidmətlərinin DXER-də qeydiyyata alınması, dövlət xidmətləri barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan

tərəfindən müəyyən edilən məlumatların DXER-ə daxil edilməsi, daxil edilmiş məlumatlarda dəyişiklik edilməsi, dövlət xidmətlərinin DXER-dən çıxarılması nəzərdə tutulur.
Bundan başqa qanunda xidmət istifadəçilərinin dövlət xidmətlərinə əlçatanlığının təmin edilməsi ilə bağlı tələblər, dövlət xidmətlərinin formaları, dövlət xidmətlərinin fiziki və elektron formada göstərilməsi qaydaları, dövlət xidmətlərinin qiymətləndirilməsi, qiymətləndirilmənin məqsədləri, dövlət xidmətlərinin keyfiyyətinə nəzarət və bir sıra digər məsələləri əhatə edən müddəalar öz əksini tapır.

## 3. "Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 301-VIIKQD nömrəli Konstitusiya Qanunu

Hüquqi akta keçid

Dəyişikliyə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti hər il martın 31-dək Azərbaycan Respublikasının Milli Məclisinin yaz sessiyasinda Nazirlər Kabinetinin fəaliyyəti haqqında hesabat verəcək.
Belə ki, qanunun 1-ci maddəsinin əvvəlki redaksiyasına görə Azərbaycan Respublikasının Nazirlər Kabineti hər il Azərbaycan Respublikası Milli Məclisin yaz sessiyasının beşinci iclasında Nazirlər Kabinetinin fəaliyyəti haqqında hesabat verirdi. Qanuna edilmiş dəyişiklikliyə əsasən hesabatın vaxtı iki orqan arasında razılaşdırılmaqla və hər iki orqanın iş qrafikinə daha uyğun vaxtda martın 31-dək, yəni ilin I rübü ilə məhdudlaşdırıldı.
Bu Konstitusiya Qanunu 2026-cı il yanvarın 1-dən qüvvəyə minir.

Hüquqi akta keçid

## 4. Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 297-VIIQD nömrəli Qanunu

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə və ümumilikdə 16 qanuna edilmiş dəyişikliklərin əsas istiqaməti investisiya mühitinin və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi, sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması, vergi daxil olmalarının və büdcə gəlirlərinin tənzimlənməsi, vergi nəzarəti mexanizminin təkmilləşdirilməsidir.
Azərbaycan Respublikasının Vergi Məcəlləsinə edilən dəyişikliklər qeyri-neft özəl sektorunda əməkhaqqı gəlirləri üzrə fiskal yükün tənzimlənməsini, Naxçıvan Muxtar Respublikasında sahibkarlıq fəaliyyətinin təşviq edilməsini, kənd təsərrüfatına dəstəyin artırılmasını, balıqçılığın inkişaf etdirilməsini, yerli avtomobil istehsalının dəstəklənməsini, media fəaliyyətinə dəstəyin davam etdirilməsini, aksizli malların siyahısının genişləndirilməsini nəzərdə tutur.
Eyni zamanda nağdsız əməliyyatların stimullaşdırılması, kiçik və orta sahibkarlığın dəstəklənməsi, qanunsuz sahibkarlıqla mübarizə, könüllü açıqlama sisteminin əhatəsinin genişləndirilməsi, dövlət-özəl tərəfdaşlığı layihələrinin stimullaşdırılması və digər institusional xarakterli müddəalar da dəyişikliklərdə öz əksini tapmışdır.
Digər qanunlarda uyğunlaşdırma xarakterli müvafiq dəyişiklik edilmiş, yeni bəndlər əlavə edilmiş və 4 qanun üzrə "müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş" sözləri "əlilliyi olan" sözləri ilə əvəz edilmişdir.

Hüquqi
akta keçid

## 5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 28 noyabr tarixli 351 nömrəli Qərarı

"Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 248-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 13 avqust tarixli 478 nömrəli Fərmanının 2.2.1.1-ci abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən "Xüsusi icra məmuru olmaq istəyən şəxslər üçün müsabiqənin, habelə ilkin icbari hazırlığın və stajın keçirilməsi Qaydaları" təsdiq edilmişdir.

Hüquqi
akta keçid

## 6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 2 dekabr tarixli 367 nömrəli Qərarı

Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 111-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 dekabr tarixli 277 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti akt qeydlərində dəyişiklik, bərpa və ləğv qaydalarını müəyyən edən Əsas Müddəalar"ın 11-ci hissəsinə və "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nın 1.17-ci bəndinə "elektron formada, elektron formada mümkün olmadıqda digər vasitələrlə" sözləri əlavə edilmişdir.

Bundan başqa "Dövlət hakimiyyəti orqanlarında, yerli özünüidarə orqanlarında və təşkilatlarda işləyən hərbi vəzifəlilərin səfərbərlik zamanı və müharibə dövründə bron edilməsi işinin təşkil olunması Qaydaları"na yeni məzmunda 2.3-1-ci bənd əlavə edilmişdir.

Qərarın 4-cü bəndi ilə "Hərbi-həkim ekspertizası haqqında Əsasnamə"də uyğunlaşdırma xarakterli dəyişikliklər edilmiş, bəzi bəndlər yeni redaksiyada verilmiş, yeni bəndlər əlavə edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 79 nömrəli Qərarı ilə təsdiq edilmiş "Adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi Qaydaları"nda, "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin istismarının təşkili Qaydaları"nda və "Çağırışçıların və hərbi vəzifəlilərin hərbi qeydiyyatının aparılması Qaydası"nda uyğunlaşdırma xarakterli dəyişiklik edilərək, yeni bənd əlavə edilmişdir.

Qərarın 9, 10 və 11-ci bəndləri ilə "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"nın 2.1.4-cü yarımbəndində, "Peşə təhsili müəssisələrinə qəbul Qaydası"nın 5.1.5-ci yarımbəndində və "Peşə təhsili pilləsinin bir səviyyəsindən növbəti səviyyəsinə keçid Qaydası"nın 4.6.5-ci yarımbəndində ismin müvafiq halında "çağırışçı şəhadətnaməsini" sözləri "ilkin hərbi qeydiyyata alınma haqqında Elektron Hökumət İnformasiya Sistemindən əldə edilmiş məlumatları" sözləri ilə əvəz edilmişdir.

Hüquqi
akta keçid

## 7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 3 dekabr tarixli 370 nömrəli Qərarı

Dəyişikliklə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 14 nömrəli Qərarı ilə təsdiq edilmiş 2 nömrəli əlavə – "Ezamiyyə xərclərinin 1 günlük normasına əlavələr və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin kateqoriyası" cədvəlinin 3-cü hissəsindən "Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında olan icra hakimiyyəti orqanlarının rəhbərləri və müavinləri," sözləri çıxarılmışdır.
Qərarın 2-ci bəndi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 10 mart tarixli 87 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət qulluğu vəzifələri üzrə test imtahanından keçmək barədə Sertifikatın Forması"na 1 nömrəli əlavə - "Dövlət qulluğu vəzifələri üzrə Sertifikatın verilməsi üçün inzibati vəzifələrin növləri, qrupları və alt qrupları" cədvəlinin "AC4" sətrinin dördüncü abzasında "başçısının inzibati ərazi dairəsi üzrə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsi, onun müavini" sözləri "orqanlarının inzibati ərazi dairələri üzrə nümayəndələri və sahə inzibati ərazi dairələri nümayəndələri və onların müavinləri" sözləri ilə əvəz edilərək uyğunlaşdırma xarakterli dəyişiklik edilmişdir.
Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 dekabr tarixli 545 nömrəli Qərarı ilə təsdiq edilmiş "1-5-ci kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin birinci yeddinci təsnifatlarına uyğun olan vakant vəzifələrin tutulmasının Ümumi Şərtləri"ndə uyğunlaşdırma xarakterli dəyişikliklər və yeni məzmunda bəndlər Qərarın 3-cü bəndi ilə əlavə edilmişdir.
Bundan başqa Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 oktyabr tarixli 322 nömrəli Qərarı ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikasının hava limanlarında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan Azərbaycan Respublikasının vəzifəli şəxslərinin Siyahısı"nın 13-cü hissəsinə "Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi və onun müavini," sözlərindən sonra "Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi," sözləri əlavə edilmişdir.

Hüquqi
akta keçid

## 8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 4 dekabr tarixli 376 nömrəli Qərarı

"Dövlət qulluğu ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 28 sentyabr tarixli 142 nömrəli Qərarına yeni məzmunda 1-1-ci hissə əlavə edilmişdir.
Belə ki, dövlət orqanlarında (mərkəzi icra hakimiyyəti orqanlarında, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətlərində, mərkəzi icra hakimiyyəti orqanlarının tabeliyində olan orqanlarda) kadr qurumları həmin orqanların mövcud ştat sayı dairəsində işçilərinin sayına mütənasib olaraq aşağıdakı qaydada təşkil edilməsi müəyyən olunmuşdur:
- işçi sayı 100 nəfərədək olduqda - kadr məsələləri üzrə maksimum 2 ştat vahidi;
- işçi sayı 101 nəfərdən 200 nəfərədək olduqda - kadr məsələləri üzrə 2 ştat vahidi və ya sektor;
- işçi sayı 200 nəfərdən çox olduqda - sektor və ya şöbə.

Hüquqi akta keçid

## 9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 5 dekabr tarixli 378 nömrəli Qərarı

“Xüsusi icra məmurları haqqında” Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 248-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 13 avqust tarixli 478 nömrəli Fərmanının 2.2.1.2-ci abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı ilə “Xüsusi icra məmurunun standart haqqının hesablanması meyarları və hədləri”, “Xüsusi icra məmurunun standart haqq üzrə avansın məbləği” və “Xüsusi icra məmurunun əlavə icra haqqının hesablanması meyarları və hədləri” təsdiq edilmişdir.

Hüquqi akta keçid

## 10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 16 dekabr tarixli 393 nömrəli Qərarı

“Xüsusi icra məmurları haqqında” Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 248-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 13 avqust tarixli 478 nömrəli Fərmanının 2.2.2.1-ci abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı ilə “Xüsusi İcra Məmurlarının Reyestrinin aparılması Qaydaları” təsdiq edilmişdir.

Hüquqi akta keçid

## 11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 22 dekabr tarixli 409 nömrəli Qərarı

Azərbaycan Respublikasının ədliyyə orqanları işçilərinin qulluq illərinin hesablanması və bununla əlaqədar onlara əlavə haqqın verilməsi qaydasında dəyişiklik edilmişdir.
Dəyişikliyə əsasən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 may tarixli 123 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ədliyyə orqanları işçilərinin qulluq illərinin hesablanması və bununla əlaqədar onlara əlavə haqqın verilməsi Qaydası”nın 2.2.5-ci yarımbəndinə yeni müddəa əlavə edilmişdir.
Belə ki, həmin yarımbənddə “hakim” sözündən əvvəl “Məhkəmələr və hakimlər haqqında” və “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 7 noyabr tarixli 65-VIIQD nömrəli Qanunu qüvvəyə minənədək ədliyyə oqranlarına işə qəbul olunmuş şəxslərə münasibətdə” sözləri əlavə edilmişdir.

Hüquqi
akta keçid

## 12."Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin 2025-ci il 19 dekabr tarixli 315-VIIQR nömrəli Qərarı

"Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisi Qərar qəbul etmişdir.
Bu Qərar Amnistiya tətbiq edilən şəxslərin dairəsi, Amnistiyanın tətbiqinə məhdudiyyətlər, Amnistiya aktının hüquqi qüvvəsi və Amnistiyanın tətbiqi qaydaları adlı 4 hissədən ibarətdir. Qərar bugünədək tətbiq edilmiş ən böyük amnistiya aktı olmaqla 20 mindən çox şəxsə şamil ediləcəkdir. Amnistiya aktının 3 və 4-cü hissələrində hüquqi qüvvəsi və tətbiq qaydaları əks olunur.
Eyni zamanda 4-cü hissənin 36-cı bəndində Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu bu Qərarın tətbiqi ilə bağlı zərurət yarandıqda amnistiyanı tətbiq edən orqanın müraciəti əsasında "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq izah verməsi nəzərdə tutulmuşdur.
Qərara əsasən barələrində amnistiya tətbiq olunaraq cəza çəkməkdən azad edilən şəxslərin sosial adaptasiyasının, onlara yardım göstərilməsinin təmin edilməsi üçün zəruri tədbirlər görülməlidir.
Amnistiya tətbiq edən orqanlar bu qərar qüvvəyə mindiyi gündən dörd ay müddətində amnistiyanın tətbiqini təmin etməlidirlər.

Hüquqi
akta keçid

## 13. "Azərbaycan Respublikasında məhkəmə ekspertizası sahəsinin inkişafına dair 2026-2030-cu illər üçün Konsepsiya"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 dekabr tarixli 844 nömrəli Sərəncamı

Məhkəmə ekspertizası sahəsində dövlət idarəetməsinin və tənzimlənməsinin təkmilləşdirilməsi, habelə bu sahədə fəaliyyətin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi məqsədilə "Azərbaycan Respublikasında məhkəmə ekspertizası sahəsinin inkişafına dair 2026 - 2030-cu illər üçün Konsepsiya" (bundan sonra – Konsepsiya) təsdiq edilmişdir.
Sərəncamın 2-ci bəndi ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə Konsepsiyada nəzərdə tutulan tədbirlərin əlaqələndirilməsi və icrasına nəzarəti həyata keçirməsi, tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat verməsi və bu Sərəncamdan irəli gələn digər məsələləri həll etməsi tapşırılmışdır.
Konsepsiyada nəzərdə tutulan tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən həyata keçirməsi Sərəncamın 3-cü bəndi ilə müəyyən edilmişdir.
Konsepsiyanın 8.1.1, 8.2.1, 8.3.2 və 8.5.1-ci bəndlərinin icrası ilə bağlı tövsiyə edilmiş "digər icraçı orqanlar" sırasında Azərbaycan Respublikasının Ali Məhkəməsi nəzərdə tutulmuşdur.

Hüquqi
akta keçid

## 14. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2025-ci il 24 noyabr tarixli Qərarı

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu 2025-ci il 24 noyabr tarixdə Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Bakı Apellyasiya Məhkəməsinin sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin VIII və X hissələri baxımından Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 326-cı maddəsinin "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 26.3-cü maddəsi ilə əlaqəli şəkildə şərh olunmasına dair konstitusiya işinə baxaraq qərar qəbul etmişdir.

№ 01/2026

Azərbaycan Respublikası Ali Məhkəməsi Aparatının
Məhkəmə təcrübəsinin təhlili şöbəsi

# DÜNYADA HÜQUQ

Azərbaycan Respublikasının
Ali Məhkəməsi

# Beynəlxalq ədalət mexanizmləri və məsuliyyət halları

## 1. BMT Baş Assambleyası və Təhlükəsizlik Şurası Phoebe Okowanı Beynəlxalq Ədalət Məhkəməsinin hakimi seçdi






BMT Baş Assambleyası və Təhlükəsizlik Şurası tərəfindən Beynəlxalq Ədalət Məhkəməsinə yeni hakim müəyyən edilib. Phoebe Okowa-nın bu vəzifəyə seçilməsi beynəlxalq hüquqda regional təmsilçilik, peşəkar müstəqillik və məhkəmənin etibarlılığı baxımından diqqət çəkən hadisədir. Seçki prosesi BMT sistemində məhkəmə institutlarının siyasi təsirlərdən qorunması üçün nəzərdə tutulmuş nadir mexanizmlərdən biri kimi qiymətləndirilir.

Xəbərin əslinə keçid

## 2. Rusiyada beynəlxalq cinayət məhkəmələrinin qərarlarını icra etməməyə imkan verən qanun qüvvəyə minib



Xəbərin əslinə keçid

Qüvvəyə minmiş yeni qanun Rusiyaya beynəlxalq cinayət məhkəmələrinin qərarlarını tanımamaq və icra etməmək üçün açıq hüquqi mexanizm yaradır. Bu addım dövlətin beynəlxalq hüquq qarşısında götürdüyü öhdəliklərin daxili hüquqla neytrallaşdırılması cəhdi kimi qiymətləndirilir. Hüquq ictimaiyyəti bildirir ki, belə yanaşma beynəlxalq cinayət ədalətinin effektivliyini zəiflədir, cəzasızlıq riskini artırır və beynəlxalq hüquq sisteminə olan etimadı sarsıdır. Qərar eyni zamanda milli suverenlik anlayışının beynəlxalq hüququn üstünlüyü prinsipinə qarşı alətə çevrilməsi ilə bağlı ciddi suallar doğurur.

## 3. Beynəlxalq Cinayət Məhkəməsi beynəlxalq humanitar hüququn pozulmasına görə fərdi cinayət məsuliyyətinin tətbiqi üzrə presedent yaradıb

Beynəlxalq Cinayət Məhkəməsi Sudanda Darfur bölgəsində mülki əhaliyə qarşı törədilmiş ağır cinayətlərə görə silahlı dəstə rəhbərini uzunmüddətli həbs cəzasına məhkum edib. Qərar beynəlxalq humanitar hüququn pozulmasına görə fərdi cinayət məsuliyyətinin real şəkildə tətbiq edildiyini göstərən mühüm presedent hesab olunur.



Xəbərin aslinə keçid

## 4. Braziliya Ali Məhkəməsi Konqresin yerli xalqların torpaq hüquqlarını məhdudlaşdırmaq cəhdini rədd etdi



Braziliya Ali Məhkəməsi Konqresin yerli xalqların torpaq hüquqlarını məhdudlaşdırmağa yönəlmiş təşəbbüsünü Konstitusiyaya zidd hesab edərək rədd edib. Məhkəmə vurğulayıb ki, yerli icmaların kollektiv torpaq hüquqları konstitusion təminat altındadır və qanunverici orqan bu hüquqları məhdudlaşdıra bilməz. Qərar yerli xalqların hüquqi müdafiəsinin gücləndirilməsi və torpaq hüquqları sahəsində məhkəmə nəzarətinin rolunu bir daha ön plana çıxarıb.

Xəbərin aslinə keçid

## 5. BMT Banqladeşin keçmiş Baş Nazir Sheikh Hasinanın insanlıq əleyhinə cinayətlərinə görə ona qarşı hərbi tribunal tərəfindən çıxarılmış hökmünü "qurbanlar üçün mühüm mərhələ" kimi qiymətləndirib





BMT tribunalın qərarını uzun illər cavabsız qalmış ağır insan hüquqlarının pozulmasının hüquqi müstəvidə tanınması kimi qiymətləndirib. Bildirilib ki, hökm cəzasızlıqla mübarizədə mühüm dönüş nöqtəsidir və keçid ədalətinin real mexanizm kimi işləyə biləcəyini göstərir. Qərar eyni zamanda qurbanların hüquqlarının beynəlxalq səviyyədə tanınmasına xidmət edir.

Xəbərin əslinə keçid

## 6. Venesuela rəsmi qaydada Beynəlxalq Cinayət Məhkəməsini tərk etmək prosesinə başlayıb





Venesuela parlamentinin qərarı ölkənin Beynəlxalq Cinayət Məhkəməsindən çıxması üçün hüquqi mexanizmi işə salıb. Bu addım təkcə bir dövlətin institusional seçimindən ibarət deyil, beynəlxalq cinayət ədalətinin universallığına açıq çağırış kimi qiymətləndirilir. Hüquqşünaslar qeyd edirlər ki, Məhkəmədən çıxış cəzasızlıq riskini artırmaqla yanaşı, dövlətlərin beynəlxalq hüquqi öhdəliklərdən siyasi səbəblərlə yayınması üçün təhlükəli presedent yarada bilər. Qərar eyni zamanda Beynəlxalq Cinayət Məhkəməsinin effektivliyi, sanksiya mexanizmlərinin zəifliyi və üzv dövlətlərin real məsuliyyəti ilə bağlı mövcud problemləri bir daha gündəmə gətirib.

Xəbərin əslinə keçid

## 7. İngiltərə Ali Məhkəməsi Avstraliya şirkətini 2015-ci ildə Braziliyada baş verən bənd faciəsinə görə məsuliyyətli saydı




İngiltərə Ali Məhkəməsi 2015-ci ildə Braziliyada baş vermiş bənd faciəsi ilə bağlı Avstraliya şirkətinin hüquqi məsuliyyət daşıya biləcəyini qeyd edib. Qərar transmilli korporasiyaların xarici ölkələrdə törədilən ekoloji fəlakətlərə görə məhkəmə qarşısında cavabdeh tutulması baxımından mühüm presedent hesab olunur. Bu yanaşma beynəlxalq biznes hüququnda korporativ məsuliyyətin coğrafi sərhədlərlə məhdudlaşmadığını bir daha göstərir.

Xəbərin aslinə keçid

## 8. Netanyahu barədə həbs qərarı Böyük Britaniyada Beynəlxalq Cinayət Məhkəməsinə maliyyə dəstəyi ehtimalını gündəmə gətirib





Netanyahu ilə bağlı həbs qərarı Böyük Britaniyanın Beynəlxalq Cinayət Məhkəməsinə maliyyə dəstəyinin davam etdirilməsi şübhəsini yenidən gündəmə gətirib. Müzakirələr beynəlxalq cinayət ədalətinə prinsipial dəstək ilə siyasi və geosiyasi maraqlar arasında tarazlığın necə qorunacağı üzərində cəmlənib. Məsələ Məhkəmənin müstəqilliyi və dövlətlərin bu mexanizmə real sadiqliyi ilə bağlı sualları da aktuallaşdırıb.

Xəbərin aslinə keçid

# İnsan hüquqları, sosial siyasət və ətraf mühit

## 9. "Şotlandiyada zorlama cinayəti qurbanlarının ifadə zamanı tam qorunması təmin ediləcək" – Baş prokuror (Lord Advocate)



Şotlandiyada zorlama qurbanlarının məhkəmə prosesində daha güclü şəkildə qorunmasını nəzərdə tutan yeni mexanizmlər tətbiq ediləcək. Baş prokurorun açıqlamasına görə, dəyişikliklər ifadə zamanı qurbanların psixoloji təhlükəsizliyinin və məxfiliyinin təmin olunmasına yönəlib. Bu yanaşma cinayət mühakiməsində qurbanların ikinci dəfə travmaya məruz qalmasının qarşısını almağı və ədalətə çıxışı asanlaşdırmağı hədəfləyir.

Xəbərin əslinə keçid

## 10. Peruda ekoloji hüquq sahəsində presedent: Amazon iynəsiz arılarına hüquqi status müəyyən edilib

Peruda məhkəmə Amazon bölgəsində yaşayan iynəsiz arılara hüquqi status verərək ekoloji hüquq sahəsində presedent yaradıb. Qərar bu canlıların ekosistemdəki rolunu tanıyaraq onların qorunmasını hüquqi müstəviyə daşıyır və ətraf mühitə dəyən zərərin ayrıca hüquq pozuntusu kimi qiymətləndirilməsinə imkan yaradır. Hüquq mütəxəssisləri bu yanaşmanı təbiət obyektlərinin hüquqi müdafiəsinin genişləndirilməsi istiqamətində mühüm addım kimi dəyərləndirirlər.



Xəbərin əslinə keçid

## 11. Böyük Britaniyada təbiətə hüquqi subyekt statusu verilməsi haqqında qanun layihəsi parlamentə təqdim olunub



Böyük Britaniya parlamentinə təqdim olunan qanun layihəsi təbiətin müstəqil hüquqi subyekt kimi tanınmasını təklif edir. Layihə qəbul olunacağı təqdirdə, ekosistemlərə vurulan zərər ayrıca hüquq pozuntusu kimi qiymətləndirilə və məhkəmələrdə birbaşa müdafiə oluna biləcək. Təşəbbüs ekoloji hüquqda insan-mərkəzli yanaşmadan kənara çıxaraq, təbiətin hüquqlarının tanınması istiqamətində atılmış mühüm addım kimi qiymətləndirilir.

Xəbərin əslinə keçid

## 12. Bəhreyn Krallığında məhkəmə və idarəetmə sistemində genişmiqyaslı islahatlar elan edilib



Bəhreyn Krallığında 2025-ci ilin sentyabr ayında məhkəmə və dövlət idarəçiliyi sahəsində genişmiqyaslı islahatlar paketi açıqlanıb. Rəsmi məlumatlara görə, dəyişikliklər məhkəmə proseslərinin səmərəliliyinin artırılmasına, institusional idarəetmənin modernləşdirilməsinə və qərar qəbuletmədə şəffaflığın gücləndirilməsinə yönəlib. İslahatlar ölkədə hüquqi idarəetmənin yenilənməsi istiqamətində atılmış əhəmiyyətli addım kimi qiymətləndirilir.

Xəbərin əslinə keçid

## 13. Yeni Zelandiya Ali Məhkəməsi Uber sürücülərini tam hüquqlu işçi kimi tanıdı






Yeni Zelandiya Ali Məhkəməsi Uber sürücülərinin hüquqi statusu ilə bağlı mühüm qərar qəbul edərək onları müstəqil podratçı deyil, tam hüquqlu işçi kimi tanıyıb. Məhkəmə sürücülərin faktiki əmək münasibətlərində çalışdığını və platformanın onların işinə əhəmiyyətli nəzarət etdiyini vurğulayıb. Qərar platforma iqtisadiyyatında əmək hüquqlarının tətbiqi baxımından presedent xarakteri daşıyır və digər ölkələr üçün də nümunə kimi dəyərləndirilir.

Xəbərin əslinə keçid

## 14. Böyük Britaniyada hakimlər mövcud cinayət məsuliyyəti yaşını "çox aşağı" hesab edirlər





Böyük Britaniyada bir qrup hakim mövcud cinayət məsuliyyəti yaşının *(10 yaş)* uşaqların psixoloji və sosial inkişaf səviyyəsinə uyğun olmadığını bildirib. Onların fikrincə, mövcud yanaşma uşaqların hüquqlarının yetərincə qorunmasına imkan vermir, bu yaş 14-ə qaldırılmalıdır və cəza yönümlü yanaşma əvəzinə daha çox reabilitasiya əsaslı mexanizmlər tətbiq olunmalıdır. Müzakirələr uşaq hüquqları və cinayət ədaləti sistemi arasında balansın yenidən qurulması zərurətini gündəmə gətirib.

Xəbərin əslinə keçid

## 15. Hindistanda məhkəmələrin şifahi müşahidələrinin rəsmi şəkildə qeydə alınmasını nəzərdə tutan qanun layihəsi təqdim edilib



Hindistanda təqdim olunan qanun layihəsi məhkəmə iclasları zamanı hakimlərin şifahi müşahidələrinin rəsmi şəkildə qeydə alınmasını nəzərdə tutur. Təşəbbüs məhkəmə proseslərində şəffaflığın artırılması, qərarların əsaslandırılmasının daha aydın izlənməsi və apellyasiya mərhələsində hüquqi qeyri-müəyyənliklərin azaldılması məqsədi daşıyır. Hüquq ictimaiyyəti layihəni məhkəmə təcrübəsinin institusionallaşdırılması baxımından mühüm addım kimi qiymətləndirir.

Xəbərin əslinə keçid

# Məhkəmələr, presedentlər və konstitusion proseslər

## 16. ABŞ Konqresi Epstein sənədlərinin açıqlanmasını səsverməyə çıxaracaq – Tramp etirazdan əl çəkdi

ABŞ Konqresi Jeffrey Epstein işi ilə bağlı sənədlərin açıqlanmasını səsverməyə çıxarmağa hazırlaşır. Prosesə qarşı əvvəl etiraz edən Donald Trump mövqeyini dəyişərək təşəbbüsə mane olmaqdan imtina edib. Müzakirələr hökumət strukturlarında şəffaflıq, ictimaiyyətin məlumat əldə etmək hüququ və yüksək səviyyəli şəxslərin mümkün məsuliyyəti məsələlərini yenidən gündəmə gətirib.



Xəbərin əslinə keçid

## 17. Rusiyada aliment sistemi dəyişdirilə bilər: məhkəmələr minimum əmək haqqını əsas götürəcək

Rusiyada aliment sisteminin dəyişdirilməsi ilə bağlı qanunvericilik təşəbbüsü müzakirə olunur. Təklifə əsasən, alimentin məbləği məhkəmələr tərəfindən minimum əmək haqqı göstəricisi əsasında müəyyən ediləcək. Məqsəd aliment öhdəliklərinin daha proqnozlaşdırılan və icrası asan mexanizmə çevrilməsidir. Bununla yanaşı, hüquqşünaslar bu yanaşmanın fərdi sosial vəziyyətlərin kifayət qədər nəzərə alınıb-alınmayacağı ilə bağlı suallar doğurduğunu qeyd edirlər.

Xəbərin aslinə keçid



## 18. Qazaxıstan "Qanunun Aliliyi İndeksi 2025" üzrə MDB ölkələri arasında birinci yerə yüksəlib




Qazaxıstan "Qanunun Aliliyi İndeksi 2025" üzrə MDB ölkələri arasında ən yüksək mövqeyə yüksəlib. Reytinq məhkəmə müstəqilliyi, qanunların icrası, korrupsiya ilə mübarizə və institusional effektivlik kimi meyarlar əsasında formalaşdırılır. Nəticə ölkədə son illər aparılan hüquqi və institusional islahatların regional səviyyədə müsbət qiymətləndirildiyini göstərir və Qazaxıstanı MDB məkanında hüquqi idarəetmə baxımından öncül mövqeyə çıxarır.

Xəbərin aslinə keçid

## 19. ABŞ Ali Məhkəməsi presedentlərin ləğvi istiqamətində addımları davam etdirməyə hazırlaşır



ABŞ Ali Məhkəməsi son illərdə qəbul etdiyi qərarların davamı olaraq mövcud presedentlərin yenidən nəzərdən keçirilməsi istiqamətində addımlar ata biləcəyinə dair siqnallar verir. Müşahidəçilər bu tendensiyanın *"stare decisis"* prinsipinin zəifləməsi və hüquqi sabitliyin azalması riski yaratdığını qeyd edirlər. Müzakirələr Ali Məhkəmənin hüququ inkişaf etdirmə rolu ilə presedentlərə sadiqlik arasında balansın necə qorunacağı sualını yenidən gündəmə gətirib.

Xəbərin əslinə keçid

## 20. Rusiyada miras alan şəxslər artıq borcları əvvəlcədən biləcək: notariuslara yeni öhdəlik

Rusiyada qəbul edilən yeni qaydalara əsasən, notariuslar miras açılarkən varislərə mərhumun borc öhdəlikləri barədə əvvəlcədən məlumat vermək öhdəliyi daşıyacaqlar. Məqsəd varislərin gözlənilməz maliyyə riskləri ilə üzləşməsinin qarşısını almaq və mirasın qəbul edilməsi ilə bağlı daha məlumatlı qərarların verilməsini təmin etməkdir. Hüquq mütəxəssisləri bu yeniliyi mülki dövriyyədə şəffaflığın artırılması baxımından müsbət addım kimi qiymətləndirirlər.



Xəbərin əslinə keçid

## 21. İsraildə məhkəmə islahatları ətrafında siyasi mübahisələr daha da güclənir




İsraildə məhkəmə islahatları ilə bağlı siyasi mübahisələr daha da kəskinləşib. Tənqidçilər islahatların məhkəmə müstəqilliyini zəiflədə biləcəyini və hakimiyyət bölgüsü prinsipinə risk yaratdığını bildirirlər. Hakimiyyət nümayəndələri isə dəyişiklikləri demokratik legitimliyin gücləndirilməsi və məhkəmə sisteminin balanslaşdırılması ilə əsaslandırır. Müzakirələr ölkədə hüquqi dövlət prinsiplərinin gələcəyi ilə bağlı ciddi narahatlıqları gündəmə gətirib.

Xəbərin əslinə keçid

# Rəqəmsal hüquq, texnologiya və idarəetmə

## 22. Warner Music ilə süni intellekt şirkəti UDIO arasında hüquqi mübahisə barışıqla nəticələnib və tərəflər birgə platforma yaratmağa razılaşıb




Warner Music ilə süni intellekt əsaslı musiqi texnologiyaları hazırlayan UDIO arasında müəllif hüquqları ilə bağlı yaranmış hüquqi mübahisə barışıq sazişi ilə yekunlaşıb. Razılaşmaya əsasən, tərəflər süni intellekt vasitəsilə musiqi istehsalı və lisenziyalaşdırmanı əhatə edən birgə platformanın yaradılması barədə razılığa gəliblər.

Xəbərin əslinə keçid

## 23. Hüquq fakültələrində keçirilən imtahanlarda süni intellekt modelləri tələbələrdən daha yüksək nəticə göstərir






ABŞ-da aparılan araşdırmalar hüquq fakültələrində istifadə olunan imtahan suallarında süni intellekt modellərinin tələbələrdən daha yüksək nəticə göstərdiyini ortaya qoyub. Modellər hüquqi mətnlərin analizi, presedentlərin tətbiqi və məntiqi əsaslandırma sahələrində xüsusilə üstün performans nümayiş etdirib. Bu nəticələr hüquq təhsilinin gələcəyi, qiymətləndirmə üsullarının adekvatlığı və süni intellektin akademik proseslərdə rolu ilə bağlı ciddi müzakirələri gündəmə gətirib.

Xəbərin əslinə keçid

## 24. Avstraliyada yetkinlik yaşına çatmayanların sosial mediaya çıxışını məhdudlaşdıran qanun Ali Məhkəmədə mübahisələndirilir



Avstraliyada yetkinlik yaşına çatmayanların sosial mediaya çıxışını məhdudlaşdıran qanun Ali Məhkəmədə mübahisə predmetinə çevrilib. İddiaçılar qanunun ifadə azadlığı və şəxsi həyatın toxunulmazlığı kimi əsas hüquqlara həddindən artıq müdaxilə etdiyini bildirirlər. Hökumət isə tədbirləri uşaqların təhlükəsizliyinin qorunması və onlayn risklərin azaldılması ilə əsaslandırır. İş rəqəmsal mühitdə uşaq hüquqları ilə fundamental azadlıqlar arasında balansın necə qurulacağına dair mühüm hüquqi suallar doğurur.

Xəbərin əslinə keçid

## 25. Avropa Komissiyası rəqəmsal tənzimləmələrin sadələşdirilməsinə dair yeni hüquqi paketi təqdim edib




Avropa Komissiyası rəqəmsal iqtisadiyyatda tətbiq edilən qaydaların sadələşdirilməsi və biznes üçün daha əlçatan olması məqsədi ilə yeni hüquqi paket təqdim edib. Təklif olunan dəyişikliklər əsasən tənzimləmə yükünü azaltmaq, sənaye innovasiyalarını təşviq etmək və kiçik və orta sahibkarlıq subyektlərinin rəqəmsal bazara daxil olmasını asanlaşdırmaq üçün nəzərdə tutulub. Rəsmi qurumlar bildirirlər ki, paket Avropa İttifaqının rəqabət qabiliyyətini gücləndirməyə xidmət edəcək, lakin kritik səslər istehlakçının məlumatların qorunması və rəqabət şəffaflığı sahələrində saxlanılmasının vacibliyini də vurğulayırlar.

Xəbərin əslinə keçid

## 26. Meta ABŞ-da antinhisar iddiasında qalib gəldi: Instagram və WhatsApp ilə bağlı məhkəmə qərarına dəyişiklik edilməyib




Amerikanın Federal Ticarət Komissiyası (FTC) tərəfindən Meta-a qarşı Instagram və WhatsApp tətbiqlərinin alınmasının bazarda rəqabəti məhdudlaşdırdığı iddiası ilə qaldırılmış antinhisar işi üzrə məhkəmə qərarı elan edilib. Vaşinqtonda federal məhkəmə hökümətin ittihamları təmin etməyərək, Meta-nı sosial media bazarında monopoliyaya malik olmaqda təqsirsiz hesab edib və şirkətin bu platformaları satması barədə tələbi rədd edilib. Hakim rəqəmsal bazarda TikTok və YouTube kimi rəqiblərin mövcudluğunu da nəzərə alaraq FTC tərəfinin monopoliya iddiasını məqbul saymayıb.

Xəbərin əslinə keçid

## Donoghue vs Stevenson (1932)

XIX əsrin sonlarında Şotlandiyada yaşayan May Donoghue adlı qadın bir gün dostu ilə kafeyə gedir. Dostu ona zəncəfilli limonad alır. İçki şəffaf olmayan şüşə butulkada təqdim olunduğu üçün içərisi əvvəlcədən görünmürdü. Donoghue içkini içməyə başlayır, lakin stəkanın sonuna yaxın içkinin içində istehlaka yararsız, zərərli bir maddə (ilbiz) olduğunu görür.

Bu hadisədən sonra Donoghue ciddi şəkildə xəstələnir və tibbi müalicəyə ehtiyac duyur. Məsələnin əsas çətinliyi ondadır ki, Donoghue içkini birbaşa istehsalçıdan almamışdı. Müqavilə münasibəti kafeylə onun dostu arasında idi və Donoghue ilə içkinin istehsalçısı arasında heç bir birbaşa müqavilə yox idi.

Buna baxmayaraq, Donoghue hesab edirdi ki, içkinin istehsalçısı məhsulu təhlükəsiz şəkildə bazara buraxmaq öhdəliyi daşıyır və onun səhlənkarlığı nəticəsində sağlamlığına zərər dəyib. İstehsalçı isə bildirirdi ki, Donoghue ilə arasında müqavilə olmadığından ona qarşı hüquqi məsuliyyət daşımır. Məsələ bu səbəbdən məhkəməyə çıxarıldı.

Məhkəmənin qarşısında belə bir sual yarandı: müqavilə münasibəti olmayan şəxs qarşısında da istehsalçı hüquqi məsuliyyət daşıya bilərmi?

Hakimlər işi araşdırarkən qeyd etdilər ki, istehsalçı məhsulun son istehlakçıya çatacağını əvvəlcədən bilir və həmin şəxsin sağlamlığı birbaşa onun diqqətli davranışından asılıdır. Donoghue istehsalçı ilə müqavilə bağlamasa da, onun hərəkətlərindən birbaşa təsirlənən şəxs idi.

Məhkəmə nəticəyə gəldi ki, istehsalçı yalnız müqavilə bağladığı şəxslər qarşısında deyil, məhsuldan istifadə edəcək və ondan zərər görə biləcək şəxslər qarşısında da məsuliyyət daşıyır.

Bu qərarla hüquqda mühüm bir prinsip formalaşdı: şəxs öz hərəkətləri ilə zərər verə biləcəyi şəxslərə qarşı ehtiyatlı davranmaq borcunu daşıyır. Bu yanaşma sonradan səhlənkarlıq hüququnun əsasını təşkil etdi və müasir mülki hüquqda fundamental yer tutdu.



**Qeyd edirik ki, bülletendə yer alan bütün məlumatlar açıq internet resurslarından götürülmüşdür. Məlumatların düzgünlüyü və aktuallığı üçün məsuliyyət həmin mənbələrə məxsusdur.*

**Əlavə məlumat və suallar üçün:**

Nilgün Məmmədova – **1830**

Bahar Oruclu – **1818**

*Azərbaycan Respublikası Ali Məhkəməsi Aparatının Məhkəmə təcrübəsinin təhlili şöbəsi*

# Faydalı keçidlər

1. UN News – https://news.un.org
2. Council of Europe Newsroom – https://www..int/en/web/portal/news
3. EU Law & Justice News – https://europa.eu/newsroom
4. OECD – https://oecd.org/newsroom
5. Avropa İnsan Hüquqları Məhkəməsi (ECHR HUDOC) – https://hudoc.echr.coe.int
6. Avropa Ədalət Məhkəməsi (ECJ/ CJEU) – https://curia.europa.eu
7. Beynəlxalq Ədalət Məhkəməsi (ICJ) – https://icj-cij.org
8. Transparency International – https://transparency.org
9. World Justice Project – https://worldjusticeproject.org
10. UNODC – https://unodc.org
11. Harvard Law Today – https://today.law.harvard.edu
12. Stanford Law and Technology Review - https://law.stanford.edu/stanford-technology-law-review-stlr/
13. The Guardian – Law section – https://theguardian.com/law
14. Law.com International– https://www.law.com/international
15. Reuters Legal – https://www.reuters.com/legal
16. Bloomberg Law – https://news.bloomberglaw.com
17. Financial Times – Law Section – https://www.ft.com/law
18. JURIST – https://www.jurist.org
19. Law360 – https://www.law360.com.
20. Global Arbitration Review (GAR) – https://globalarbitrationreview.com
21. The Lawyer – https://www.thelawyer.com
22. European Law Blog – https://europeanlawblog.eu
23. Euractiv – Justice & Home Affairs – https://www.euractiv.com/section/justice-home-affairs
24. ABA Journal (American Bar Association) – https://www.abajournal.com
25. International Association of Judges – https://www.iaj-uim.org/iuw/